**Amid Səlimoğlu**

# 44 gün

*Zülm içində qovrulan torpaqların azadlığı,*
*Qəhrəman bir xalqın cəsarəti ilə aydınlığa qovuşar...*

**Bakı-2021**

**Amid Səlimoğlu "44 gün". 44 səhifə**

**Korrektor: Aynur Əliyeva**

İnstagram.com/amidselimoglu

Facebook.com/amidselimoglu

Linkedin.com/amidselimzade

**Bakı 2021**

**VƏTƏN ÜÇÜN CANLARINI HEÇƏ SAYANLARIN XATİRƏSİNƏ...**

*Nə düşündüyünün heç bir anlamı olmadığı zamanlar vardır. Sualların cavabsız qaldığı, cavabların heç bir məna kəsb etmədiyi zamanlar. Dünyanın bir ucundan keyimişcə baxarsan həyata. Nə istədiyinin, nə düşündüyünün fərqinə varmazsan. İçindəki qəribə hiss sarar bədənini. Boğazın düyünlənər, hər sən danışmaq istədikcə. Ancaq qürurun bəlli etməz, gözlərini qaçırdar insanlardan səni. Eləcə susarsan... Sakit, dərin, sevinc dolu kədərlə... Mənim, sadəcə iyirmi yaşım vardı. Həyatımın sıfır nöqtəsində idim. Çox da uzaq olmayan keçmişimin bütün xatirələrini bir araya gətirdiyim gündə. Gələcəyim isə?..*

– Nə vaxt gedirsən? – Pərviz dedi.

– Sabah orda olmalıyam.

– Tək gedəcəksən?

– Bilmirəm hələ. – Yusifin üzünə baxmadan cavab verdim. – Evdəkilərin xəbəri yoxdu heç. Birinci onlara deməliyəm.

– Yaxşı. Onda gedək sizə. Hava qaralır artıq.

– Gedək, Fuad. – Qaz borusunun üstündən duraraq şalvarımın tozunu təmizlədim.

Dördümüz də küçənin ortasıyla bizim evin yolunu tutduq. Başımızı qaldırmadan irəliləyirdik. Danışılacaq heç nə yox idi bəlkə də. Susurduq.

Hava yavaş-yavaş qaralırdı. Həyət evlərinin arası ilə asfalta çıxıb yuxarı doğru getməyə başladıq. Küçədə çox adam yox idi. Bir neçə uşaqdan başqa gözə kimsə dəymirdi. Asfalt yolla bir qədər də getdikdən sonra sağa, torpaq yola döndük. Evə az qalmışdı. Hər addımda daha asta yeriməyə başlamışdım.

Evə çatıb həyət qapısından içəri girdim. Qapını açan kimi altı yaşındakı bacım qaçaraq qucağıma tullandı.

– Harda idin? – deyə üzümə baxdı.

– Uşaqlarla idim.

– Bəs məni gəzməyə aparacaqdın? Yenə yalan danışdın.

– Aparacam. Söz verirəm. – Yanağından öpərək yerə qoydum.

– Gəldin?

– Gəldim, ana.

– Siz də xoş gəlmisiz, bala. – Anam əlindəki paltar vannasını yerə qoydu.

– Sağ ol, bibi. – Dostlarım bir ağızdan dedilər.

– Orda niyə durmusuz? Keçin içəri.

– Çox sağ ol, bibi. Gedirik onsuzda. – Yusif gülümsəyərək cavab verdi.

– Atam evdədi?

– Hə. İndi gəlib. Niyə? Nə olub ki?

– Heç nə... Elə-belə soruşuram. – Yanından keçərək evə girmək istədim.

– Nə olub, a bala? – deyə dostlarımın üzünə baxdı.

Onların isə deyəcək bir sözü yox idi. Eləcə anamın üzünə baxara qalmışdılar. Mənsə evə girərək qonaq otağına getdim. Atam divanda oturmuş, xəbərlər proqramına baxırdı. Məni görüb əlindəki stəkanı masanın üstünə qoydu.

– Gəlmisən?

– Hə, gəldim. – Yanında oturdum. Bir neçə saniyə susduqdan sonra sözə başladım. – Zəng eləmişdilər... Rayondan...

– Hə? Nə dedilər? – Atam sanki bunu hiss etmişdi.

– Çağırırlar.

– Nə vaxt orda olmalısan?

– Sabah. Saat 10-da.

– Lap yaxşı. Səhər tezdən çıxarıq onda.

– Yox. Özüm də gedərəm. Sən narahat olma.

– Olmaz elə şey. Bir yerdə gedərik.

– Yaxşı. Necə istəyirsən. – Üzünə baxdım.

– Qorxmursanki?! – Gülümsəyərək dedi.

– Yox. Qorxmuram. Mən sizə görə...

– Bizə görə də narahat olma onda. Nə olacaqsa, Allahın izni ilə yaşayıb görəcəyik. – Əlini çiynimə qoydu. – Möhkəm ol. Sən özünü yaxşı hiss etdiyində biz də özümüzü yaxşı hiss edəcəyik. Oldu?

– Oldu, – deyə gülümsədim.

– Onda dur hazırlan. Sabah tezdən çıxacağıq.

Ayağa qalxıb qapıya tərəf dönmüşdüm ki, anamı gördüm. Həyəcanla mənə baxırdı.

– Hara gedirsənki?

– Mən... Sabah gedirəm. – Atam tərəfə çevrildim.

– Rayondan zəng ediblər. Onu da çağırırlar.

Anam atamın bu sözünü eşidən kimi mənə baxdı. İlk öncə nə baş verdiyini anlamasa da, sonradan hər şeyi anladı. Bu heç iki saniyə də çəkmədi. Elə o an əlini ağzına tutaraq hönkürtü ilə ağlamağa başladı. Bir əli ilə gözlərinin yaşını silir, bir yan da səsini eşitməyək deyə əli ilə ağzını tuturdu.

– Ay ana, niyə ağlayırsan? Narahat olma. Tez gedib gələcəm. Vallah gələcəm. – Onu elə görüb sakitləşdirməyə çalışdım.

Anamı elə görən bacım da anamın qıçını qucaqlayıb ağlamağa başladı. Balaca uşağın heç nədən xəbəri yox idi. Anam cəld onu qucağına alaraq mətbəxə apardı. Mənsə onların arxasınca baxaraq qaldım.

– Qoy içini boşaltsın. – Atam ayağa qalxaraq yanıma gəldi. – Ağlamaq yaxşıdı.

– Kaş yavaş-yavaş deyərdim.

– Heç nə olmaz. Narahat olma. – Pencərədən çölə baxdı. – Dostların da çöldə qalıb. Ayıbdır.

– Hə, düz deyirsən. – Otaqdan çıxaraq evin giriş qapısına yaxınlaşdım.

– Nəsə olub? – Pərviz qabağa gələrək dedi.

– Yox. Hər şey yaxşıdı.

– Bizlik nəsə var? Nə desən edərik, – deyə Fuad dilləndi.

– Sağ olun. Ancaq heç nə lazım deyil. Siz də burda ayaqüstə qaldınız. Gəlin, keçin evə.

– Yox, lazım deyil. Siz indi bir yerdə olsanız yaxşıdır.

– Necə deyirsən elə olsun, Pərviz.

– Biz onda gedək. Sabah səhər görüşərik.

– Heç lazım deyil. Özünüzə əziyyət verməyin. – Yusifə baxdım. – Səhər tezdən çıxacağıq onsuzda.

– Yenədə gələcəyik. Həm bizi də çağıracaqlar. Bəlkə elə bir yerdə olduq. Hə? – Pərviz əlini qoluma toxundurdu.

– Qismət. – Gülümsəyərək dedim.

– Özünə yaxşı bax. Evdəkilərdən də narahat olma. Biz həmişə buradayıq.

– Sağ olun. – Fuada baxaraq dedim.

– Oldu onda. Biz gedək. Dincəl sən də. – Yusif o biri uşaqlara baxıb dedi.

– Sağ-salamat.

Onları qapıdan ötürdükdən sonra yenidən evə qayıtdım. Anam mətbəxdə oturub hıçqıraraq ağlamağa davam edirdi. Onu sakitləşdirəcək heç nə edə bilmirdim. Mənə təsir edən bu idi. Atamsa qonaq otağında, əlində telefon var-gəl edirdi. Deyəsən, qohumlarla danışırdı. Qonaq otağının qarşısından ayrılaraq yenidən mətbəxin önünə gəldim. Anam oturduğu yerdə eləcə qalmışdı. Arabir əlindəki yaylıqla gözlərinin yaşını silir, sonra yenə ağlamağa başlayırdı. Mətbəxə girib yanına getdim. Stulda əyləşərək sağ əlimlə onu özümə tərəf dartdım. Başını sinəmə söykəyərək yenidən ağlamağa başladı.

– Niyə ağlayırsan? – Heç bilmirdim onu necə sakitləşdirim.

– Anam sənə görə ağlayır. Niyə incidirsən onu? – Bacım balaca əlləri ilə dizlərimi vuraraq hirsini çıxmağa çalışırdı.

– Onun günahı yoxdu, – deyə anam bacımın qolundan tutaraq özünə tərəf dartdı. – O məni incitməz heç vaxt.

– Bəs niyə ağlayırsan? – Bacım yenə soruşdu.

– Heç nə. Elə-belə. – Anam gözlərinin yaşını silərək dedi. Sonra yenə baxdı. – Sabah mütləq getməlisən?

– Hə. Elə deyiblər. Orda olmalıyam.

– Mən də gedəcəm.

– Yox. Lazım deyil. Atam gedəcək onsuzda.

Anam susaraq mənə baxırdı. Heç nə demir, eləcə susurdu. Onun demək istədiklərini gözləri deyirdi.

– Narahat olma. Yaxşı?

– Nə deyirsən de, ancaq bunu demə. Mən narahat olmalıyam.

– Bir mən deyiləm ki. Gör nə qədər oğul öz anasından uzaqda alovların içindədir. Bizim pis olmağa haqqımız yoxdur indi.

– Allah hamınızın köməyi olsun. Sağ-salamat qayıdasınız İnşaAllah. Tək arzum budur. – Yenidən başını sinəmə qoydu.

Mətbəxdə eləcə bir qədər də oturub qaldıq. Atamsa çoxdan yaxınlıqdaki qohumlara zəng etmiş, gedəcəyimi xəbər vermişdi. Yarım saat belə çəkməmiş hamısı çıxıb gəlmişdilər. Qadınlar mətbəxdə anamı sakitləşdirməyə çalışırdılar, kişilərsə köhnə günləri yad edib məni ürəkləndirirdilər. Hər kəs bacardığı qədər, hər kəs gücü çatdığı qədər öz köməyini göstərməyə çalışırdı. Hər kəs hər şeyin əlbət düzələcəyinə inanırdı. Həm də çox...

***

Səhərin erkən saatlarında yerimdən qalxmışdım. Yola düzəlmək vaxtı idi. Bacımı oyatmağa qıymamış, sakitcə üzündən öpərək çıxmışdım otağından. Anamın səksəkəli əllərindən öpüb çıxmışdım evimdən. Atamın yanı ilə, ikimiz yola düşmüşdük. Yolumuz uzun idi.

Heç iki saat keçməmişdi ki, biz artıq rayon Hərbi Komissarlığının qarşısında idik. Demək olar ki, bütün rayon orada idi. Hamı dəstək olmaq üçün ora toplaşmışdı. Əllərdə bayraqlar, dillərdə şüarlarla yola salırdı xalq öz övladlarını. Çağırışçılar bir-bir komissarlığın qapısından keçirdi. Bir qədər gözlədikdən sonra “Muradov”, – deyə məni də çağırdılar. Cəld komissarlığın qapısına yaxınlaşdım. Hərbi Komissarlığın işçisi məni Hərbi Komissarın otağına apardı. Otaqda məndən başqa yeddi nəfər də var idi. Hərbi komissar üzümə baxaraq dedi:

– Muradov, hazırsan?

– Bəli, cənab polkovnik.

– Əsgər olduğun zaman göstərdiyin cəsarəti indi də göstərməlisən. Bütün Azərbaycan üçün.

– Oldu, cənab polkovnik.

– Birazdan avtobus yola düşəcək. Sən də o avtobusla gedəcəksən. Gedəcəyin yeri çatanda öyrənəcəksən. Hər şeyi orada sənə izah edəcəklər. Başa düşmədiyin nəsə var?

– Xeyr.

– Yolun açıq olsun, Muradov.

– Sağ olun, – deyib geri döndüm. Otaqdan çıxaraq çöl qapıya doğru addımladım. Otaqdaki yeddi nəfər də arxamca gəlirdilər. Qapıdan çölə çıxanda gözləmədiyim anda birdən hamı bizi alqışlamağa başladı. Atamda hamı ilə bir yerdə bizi alqışlayırdı. Camaatın arasından "Sağ-salamat gedib gələsiz", "Ən böyük əsgər, bizim əsgər" sədaları duyulurdu. O an daha çox qürurlanmışdım. Necə də qürurlanmayasan axı. Bütöv bir xalq sənə inanırdı, sənə əmanət edirdi torpağını.

Atamın yanına gedərək üzünə baxdım.

– Gedirsən?

– Birazdan. Avtobus gələcək. Onunla gedəcəyik.

– Hara?

– Demədilər. Gedəndə öyrənəcəm.

– Yaxşı. – Başını aşağı saldı. Üzümə baxmaq istəmirdi.

– Narahat olma. Hər şey yaxşı olacaq.

– İnşaAllah, bala. Hamınız sağ-salamat gedib qayıdasınız evinizə. Allah başınızın üstündən əksik olmasın. – Səsinin titrədiyini hiss edə bilirdim.

– Avtobus hazırdır, – deyə kimsə qıraqdan qışqırdı. Üzümü atamdan çəkərək səs gələn tərəfə boylandım. Deyəsən, getmək vaxtı gəlib çatmışdı.

Atamla bir yerdə yavaş-yavaş avtobusa yaxınlaşdım. Çağırışçılar bir-bir öz ailəsi, yaxınları ilə görüşdükdən sonra avtobusa minirdilər. Analar göz yaşları ilə yola salırdı övladlarını, atalar isə özlərini güclə saxlayırdılar. Sıra mənə gəlib çatanda atamla görüşüb avtobusa mindim. Avtobusun pəncərəsindən atama baxır, əlimi havaya qaldıraraq bir daha sağollaşırdım. O isə sakitcə duraraq üzümə baxırdı. Gözləri dolsa da, bunu mənə bildirmək istəmirdi. Axırıncı çağırışçı da avtobusa mindikdən sonra avtobusun qapıları bağlandı. Avtobusun mühərrikinin işə düşməyi ilə yola düşməyimiz bir oldu. Atam əli havada avtobusun arxasıyca gəlirdi. Mənsə avtobusun şüşəsindən başımı çölə çıxarıb ona baxırdım. Avtobus bir qədər də getdikdən sonra atam artıq dayandı. Əli ilə gözünün yaşını silirdi. Bunu mən çox

yaxşı görə bilirdim. Onu ilk dəfə idi belə görürdüm. O sırada isə hər kəs bizi alqışlayır, dualarla yolsa salırdılar. Hər şey isə hələ qabaqda idi.

***

Yol boyu avtobusdakılarla qaynayıb-qarışmış, bir-birimizi tanımağa çalışmışdıq. Hər yaşdan adam var idi avtobusda. Kimisi yenicə hərbi xidməti başa vurmuşdu, kimisi də bir neçə il öncə. Yaşca böyük olanlar özlərindən kiçikləri həvəsləndirmək üçün keçmiş günlərdən danışır, hərbi xidmət illərindən əhvalatlar danışırdılar. Gah avtobusu gülüş səsləri bürüyürdü, gah da birinin hekayəsini dinləmək üçün səssizliyə boğulurdu. Biz bir-birimizi çox yaxşı anlayırdıq.

Avtobus dörd saatdan sonra yerləşəcəyimiz hərbi hissəyə gəlib çatmışdı. Girişdə sənədlərimizi yoxladıqdan sonra bizi geyim anbarına apardılar. Hərbi formaları təhvil almalı idik. Hərbi formaları alıb geyindikdən sonra bizi hərbi hissəsinin arxasına apardılar. Bizi bir sıra düzdükdən sonra komandirlərdən biri önümüzə keçərək danışmağa başladı.

– Hamınız buraya nə üçün gəldiyinizi yəqin ki, bilirsiniz. İki gün bundan qabaq düşmən atəşkəsi pozmuş və Azərbaycan öz əzəli torpaqlarının geri alınması üçün hərəkətə keçmişdir. Ordumuz bütün istiqamətlərdən düşmənə amansız zərbələr endirməkdədir. Və sizlər də ordumuza dəstək olmaq üçün buradasınız.

– Sual verə bilərəm, cənab leytenant? – Sıradakılardan biri səsləndi.

– Ver, – deyə leytenant cavab verdi.

– Biz nə vaxt cəbhəyə yollanacağıq?

– Onun da öz vaxtı var. Öncəliklə təlimlər olacaq. Tam hazır olduqdan sonra sizə xəbər ediləcək.

– İndi cəbhədə vəziyyət nə yerdədir? – Bu səfər mən soruşdum.

– Ordumuz Füzuli və Cəbrayıl rayonlarının bir sıra kəndlərini işğaldan azad etmişdir. – Leytenat bu sözləri deyərkən gülümsəyir, öz sevincini bildirirdi. – Hər gün daha da irəliləyəcəyik.

Onun bu sözlərindən sonra hamının üzündə təbəssüm yaranmışdı. Hamı qələbəyə sevinirdi.

– İndi isə sizə verəcəyim tapşırıq silah təmizliyidir. Ən əsas məsələlərdən biri budur. – Üzünü yanında dayanmış gizirə çevirdi. – Əlizadə, anbara gedin. Silahların hamısı bugün təmizlənməlidir.

– Oldu, cənab leytenant. – Gizir dedi.

– Gedə bilərsiniz.

– Sağa dön, addımla marş! – Gizir uca səslə istiqamət verdi.

Silah anbarının qarşısında bir qədər gözlədikdən sonra içəridən gizirlə bərabər bir nəfər də çıxdı.

– Baş çavuş Mustafayev sizə təmizləyəcəyiniz silahları verəcək. Sıra ilə keçib götürəcəksiniz. Sonra da öz yerinizi alıb təmizləməyə başlayacaqsınız. Başa düşmədiyiniz nəsə var?

– Xeyr. – Hamımız ucadan dedik.

– Onda bir-bir sağdan hərəkət edin.

Tək-tək anbara girir, silahı alıb çölə çıxırdıq. Silahı alanlar öz yerlərini aldıqdan sonra silahı təmizləməyə başlayırdılar. Bu proses bir qədər davam etdikdən sonra mən də silahı alıb yerimə keçmişdim. Masanın başında məndən başqa altı nəfər də vardı. Hamısı susaraq silahı təmizləyir, bir söz belə danışmırdılar. Ancaq bu səssizlik çox çəkməyəcəkdi.

– Mən bu qədər səssiz heç əsgərlikdə olmamışam. Niyə danışmırsız?

– Nə danışaq, Hüseynov? – deyə ona baxdım.

– Nə bilim. Bütün günü sakit dayanmayacağıq ki. Heç olmasa bir-birimizi daha yaxşı tanıyarıq. Məsələn sən, – əlini masanın aşağısındakı oğlana uzatdı. – Adın nə idi sənin?

– Fərid. Qəribov Fərid. – Gülümsəyərək cavab verdi.

– Bax, artıq sənin adını bildim. Mən də Hüseynov Elsəvər. Muradov Şəhriyarla eyni avtobusdaydıq deyə onu az-maz tanıyıram. – Əli ilə məni göstərdi. – Ancaq sizi tanımıram. Əgər çiyin-çiyinə vuruşacağıqsa, bir-birimizi yaxşı tanımalıyıq.

– Düz deyirsən, Hüseynov. – Qarabəniz oğlan dedi. – Bir-birimizi yaxşı tanımalıyıq. Onda başlayaq özümüzü tanıtmağa. Mənim adım Vüqardır. Soyadım Ağayev.

– Mənim adım da Xaliddir. Soyadım Quliyev. – Sarı saç gənc dedi.

– Mənim adım da Həmiddir. Soyadım da Kərimzadə, – deyə aramızda ən uzun olan özünü təqdim etdi.

– Mənim adım Sabirdir. İsmayılov Sabir. – Masanın başında sakitcə duran arıq, cılız oğlan dedi.

– Bax hamımız artıq bir-birimizin adını, soyadını öyrəndik. Hələ bir-birimizi çox görəcəyik. O zaman daha yaxşı tanıyarıq. Elə deyil, Muradov?

– Elədir ki, var, Hüseynov. – Gülümsəyərək dedim.

– Görəsən, cəbhədə vəziyyət necədi? – Qəribov yağlı parçanı lülə qutusunun qapağına sürtərək dedi.

– Necə olacaq, bizimkilər it qovmaqla məşğuldular. İnşaAllah biz də tezliklə onlara qoşularıq. Onsuz da çox yaxındayıq. – Kərimzadə Qəribova cavab verdi.

– Çox həyasız millətə rast gəlmişik Vallah.

– Düz deyirsən, Quliyev. – Hüseynov onun sözünü təsdiqlədi. – Ancaq ədalət mütləq öz yerini tapacaq.

– Neçə-neçə igid oğullar şəhid oldu. Onların da qisası alınacaq İnşaAllah.

– Əlbəttə, Ağayev. Buna heç şübhəniz olmasın. İnanın ki, bütün Azərbaycan bu günü gözləyirdi. – Hüseynov əlini qabağa uzatdı. – Həm düşmənə, həm də dünyaya bizim hansı gücə qadir olduğumuzu göstərməliyik. Düz demirəm, Muradov? – Hüseynov gözləri bərəlmiş vəziyyətdə mənə baxdı.

– Düzdür, Hüseynov. Ermənilər həmişə başqalarının arxasında gizlənərək öz əməllərinin üstünü ört-basdır edirdilər. Ancaq indi onlara heç güvəndikləri ölkələr də kömək etməyəcək. Biz qələbə qazanacağıq. Torpaqlarımız da geri qayıdacaq.

– İnşaAllah. – Hamı bir ağızdan dedi.

– İndi isə biraz tez olaq, silahları təmizləyib qurtaraq. Vaxt gedir.

Mənim bu sözümdən sonra hamı başını aşağı salaraq silahını təmizləməyə davam etdi.

Biz bir neçə saat içində demək olar ki, bütün silahları təmizləyib qurtarmışdıq. Havanın qaralmasına isə çox az qalmışdı. Ancaq hələ də çağırışçılar gəlməkdə idi. Hər bölgədən, hər rayondan çağırışçılar hərbi hissəni doldururdu. Axşam yoxlanışından sonra bizi şam yeməyi üçün yeməkxanaya aparmış, sonra isə gecəni keçirəcəyimiz kazarmaya gətirmişdilər. Hər kəs hərbi formalarını çıxarıb masanın üzərinə sərdikdən sonra öz yataqlarına uzanaraq sabahın açılmasını gözləyirdi. Sabah təlimlərə başlayacaqdıq.

***

Qulaqlarım partlayış səslərini eşitsə də sanki yuxuda idim. Gözlərimi açdığımda əvvəlcə gördüklərimə inana bilməmişdim, ancaq hər şey həqiqət idi. Hərbi hissənin ətrafına bombalar yağırdı. Bunu pəncərədən açıq-aydın görə bilirdim. Ayağa qalxaraq formamı geyinməyə başladım. Artıq hamı səslərə oyanmış, yarı yuxulu vəziyyətdə olanları anlamağa çalışırdılar.

– Hamı qalxsın. Hərbi hissəni atəşə tutub şərəfsizlər, – deyə qışqırdım.

Mənim sözümdən sonra hamı bir anda yerindən qalxıb formalarını geyinməyə başladı. Çəkməni də geyindikdən sonra kazarmadan çıxıb silah otağına qaçdım. Gizir Mustafayev silah otağının qarşısında dayanmışdı.

– Sən niyə oyanmısan? – Mənə baxıb dedi.

– Cənab gizir, hərbi hissəni atəşə tutublar. Eşitmirsiniz?

Elə bu anda digərləri də yanıma gəldilər.

– Silahları vermirsiniz, cənab gizir? – Ağayev silah otağının içinə baxdı.

– Əşşi heç nə yoxdu. Gedin yatın. Buranı vura bilməzlər.

– Necə yəni?

– Muradov, dediyim kimi. Hərbi hissəsin mövqeyi onlara imkan vermir vursunlar. Ona görə də kənarlara düşür mərmilər.

– Başa düşdüm.

– Ona görə də gedin yatın, istirahət edin. Birazdan hər şey qurtaracaq, səssizlik olacaq. – Bizim sakitcə durub ona baxdığımızı görüm yenidən dedi. – Gedin... gedin.

– Oldu, cənab gizir.

Hamımız geriyə dönüb yenidən kazarmaya, yerlərimizə qayıtdıq.

– Adamdakı rahatlığa bax. Dünya vecinə deyil. – Kərimzadə gülərək dedi.

– Necə olmalıdır ki? Birinci dəfə deyil bunu görür. Halal olsun. Möhkəm adamdır.

– Hə, Qəribov. Elədir. – Onun sözünü təsdiqlədim.

– Bizim üçün də yaxşı oldu məncə. Gəlişimizin şərəfinə atəşfəşanlıq elədilər.

Hüseynovun bu sözünə hamımız güldük.

– Yaxşı. Yataq artıq. Gecəniz xeyirə. – Yerimə uzanıb dedim.

– Xeyirə qarşı. – Hamı bir ağızdan qarşılıq verdi.

***

Ertəsi gündən başlayaraq bir həftə ərzində bizə təlim keçdilər. Hər gün eyni saatda yerimizdən qalxır, hava qaralana kimi döyüşə hazırlaşırdıq. Hamı səbrlə təlimlərin bitməsini gözləyirdi. Döyüşə qatılmaq üçün günləri, saatları, hətta dəqiqələri belə sayırdıq. Gündüzlər vaxtımızı təlimdə, axşamlar isə kazarmada, televizorun qarşısında keçirirdik. Cəbrayıl şəhərinin işğaldan azad edilməsini də elə orada öyrənmişdik. Sevincimizin həddi-hüdudu yox idi. Bir yandan sevinirdik, bir yandan da orada olmadığımıza görə kədərlənirdik. Ancaq inanırdıq ki, biz də bir gün onlara qoşulacaq, torpaqlarımızın geri alınmasında onlara kömək edəcəyik. O gün heç də uzaqda deyildi.

## *1 həftə sonra*

Gecənin bir yarısı "Bölük qalx!" səslərinə açdıq gözlərimizi. Səs gizir Fətəliyevin idi. Kazarmanın işıqlarını yandırmış, bizim oyanmağımız üçün ucadan əmr verirdi. Ayağa qalxıb hərbi formamı geyinməyə başladım.

– Cəld olun! Hazır olanlar silah otağına. İki dəqiqəyə sıra meydanında olmalısınız. Tələsin!

Vaxtımız az idi. Silah otağından çıxanlar aşağı, sıra meydanına tələsirdi. Silahlandıqdan sonra cəld aşağı endim. Sıra meydanında komandir heyəti bizi hazır gözləyirdi. Hamımız çatıb bir sıra düzüləndən sonra kapitan Sarıyev qarşımızda dayanıb ucadan danışmağa başladı:

– Yəqin edirəm ki, kazarmadan bura gələnə qədər içinizdə nə qədər sual yaranıb. Sizə bildirmək istəyirəm ki, bu həyəcan siqnalı sizin sayıqlığınızı yoxlamaq üçün deyil. Artıq döyüşə qoşulmaq vaxtıdır. – O, bu sözləri dedikdən sonra bir neçə saniyə susaraq bizi izlədi. Bizim nə hiss etdiyimizi görmək istəyirdi. – Qısa müddət ərzində sizlər döyüşə tam hazır vəziyyətə gəldiniz. İndi isə döyüşmək və düşmənlərimizi məğlub etmək zamanıdır. Mən sizin hamınıza inanıram. Bizlər şərəfimizlə yaşadıq, Allah nəsib etsə, şərəfimizlə də Şəhid olacağıq. Ancaq savaşmadan əsla! – Yenidən bir neçə saniyə susdu. Onun sözləri hamımızı ürəkləndirmişdi. – İndi isə yola çıxmaq vaxtıdır. Leytenant Əliyev, – deyə leytenanta baxdı.

– Sağa dön, irəli marş! – Leytenant Əliyevin əmri ilə hamımız sağa dönərək avtomobillərə doğru addımlamağa başladıq.

Bir neçə dəqiqədən sonra avtomobilin banında öz yerimizi tutmuşduq. Yola çıxmaq üçün tam hazır idik. Bir neçə dəqiqə daha keçdi və avtomobil yavaşca yola düşdü. Bizsə sakitcə oturmuş, gedəcəyimiz yer haqqında düşünürdük.

– Bu kamazların banında çoxdandır getmirdim. – Balaşov təxmini yarım saat çəkən sakitliyi pozaraq dedi.

– Həə. Elə mən də. – Ağayev gülümsədi.

– Üç aydan bir təlimlərə gedərkən çox yırğalanmışam bunda. Asfalt yolda yaxşıdır, ancaq torpaq yolda çox da yaxşı deyil. Adamın bütün orqanları yerini dəyişir.

– Elədir. – Dadaşova baxdım. – Ancaq bunun da ayrı yeri var. Əsgər vaxtı çox getmişəm bunda. Bizim adi günlərdə danışmağa çox vaxtımız olmurdu deyə nə xəyallarımız, nə arzularımız vardısa, elə burda oturub danışardıq bir-birimizə.

– Əsgər olarkən düşünməyə çox vaxtın olur, ancaq danışmağa elə də vaxtın olmur. Öz-özünə sadəcə. – Qəribov gözlərini ovuşdurdu. – Mənim olduğum hərbi hissə ermənilərlə sərhəddə yerləşirdi. Gecə postda durarkən düşünməyə çox vaxtın olur. Elə vaxtlar olurdu ki, düşünəcəyin heç nə qalmırdı. Bilmirdin nəyin dərdini çəkəsən, nə fikirləşəsən, kimi düşünəsən.

– Mən də sərhəddə olmuşam. Gecələr mənim də düşünməyə çox vaxtım olurdu, gündüzlər də erməniləri izləyirdim.

– Muradov, onlar da bizi izləyirdi?

– Hə, Hüseynov. Arabir qışqırırdılar da. Həm də bizim dildə.

– İndi onlara elə qışqıracağıq ki, ürəyləri partlayacaq. – Kərimzadə silahını qaldırıb dedi.

– Mütləq. Allah hamımızın köməyi olsun. İnşaAllah sağ-salamat gedib gələrik. Şəhid olsaq da, Vətən sağ olsun.

– İnşaAllah, Muradov. – Hamı bir ağızdan dedi.

Təkcə İsmayılov susur, heç nə danışmırdı. Elə sakitcə yerində oturmuş, gözlərini bir nöqtəyə dikərək donmuşdu.

– İsmayılov, sən niyə susursan? Bəlkə qorxursan, hə? – Hüseynov zarafatla ona sataşdı.

– Mən?! – İsmayılov qaşlarını çataraq əsəblə ona baxdı. – Mən heç nədən qorxmuram. – Bədəncə hamımızdan zəif olsa da, neçə gün ərzində onun necə hünərli olduğunu gözlərimizlə görmüşdük.

– Niyə əsəbləşirsən? Zarafat eliyirdim səninlə. – Hüseynov sakitcə dedi.

– Mən əsəbləşmirəm. Sadəcə... – Bir qədər susub düşündükdən sonra yenidən sözə başladı. – Sizdən bir şey istəyə bilərəm?

– Nə, İsmayılov? – Kərimzadə sual verdi.

– Xahiş edirəm, məni ölməyə qoymayın. – Bu sözləri o zorla, utana-utana dedi.

– Nə danışırsan əə sən? O nə sözdü? – Qəribov İsmayılova əsəbləşdi.

– Sən nə danışdığını bilirsən, İsmayılov?

– Mən özüm üçün istəmirəm, Muradov. Vallah düzünü deyirəm. – İsmayılov udqunaraq dedi. – Anam üçün... ona görə deyirəm. Onun məndən başqa heç kimi yoxdur. Mən olmasam, ona kim baxacaq axı?! – Son sözləri deyib gözlərini yerə dikdi.

Onun bu sözləri hamımızı silkələmişdi. Artıq bir kəlmə belə deməmiş, başımızı açağı salaraq susmağı seçmişdik, yolun davamını sakit, səssiz keçirmişdik.

Bir qədər torpaq yolla getdikdən sonra yolu piyada davam etməli olacaqdıq. Buna görə də avtomobilin banından enərək bir sıra düzüldük. Kapitan Sarıyev qarşımıza keçərək asta səslə danışmağa başladı:

– Yolun qalanını piyada gedəcəyik. Bu yol... – Əli ilə cığırı göstərdi. – bizi ermənilərin olduğu posta aparacaq. Ora çatdıqda Xüsusi Təyinatlı Dəstə ilə birləşəcəyik.

– Komandir, daha denən biz heç nə etməyəcəyik ki. – Hüseynov gülərək dedi.

– Yox, Hüseynov. Mütləq edəcəyik. Bizim vəzifəmiz ermənilərin başını qatmaq olacaq. Bu post ermənilərin ən çox olduğu postlardan biridir. Buranı yardığımız zaman önümüz də açılmış olacaq. Hamınız çox ehtiyatlı olmalısınız. – Bir neçə saniyə susaraq dərindən nəfəs aldı. Sonra yenidən dedi. – İndi isə yola düşək. Yolumuz uzundur.

Kapitan Sarıyev öndə, bizsə onun arxası ilə addımlayırdıq. Hava qaranlıq olduğundan göz-gözü görmürdü. Hər tərəf zülmət qaranlığa qərq olmuşdu. Ağacların arası ilə ehtiyyatla irəliləyirdik. Hər kəs ətrafına diqqətlə baxır, qaranlığın içindən nəsə seçməyə çalışırdı. Yolumuz uzun və çətin idi.

*Ay işığı yoldaşımız olmuşdu. O idi yolumuzu aydınladan. Biz sırayla addımlayırdıq düşmən postuna doğru. Öndə komandirimiz, arxasında qələbəyə inanan əsgərləri. Düşmənin üstünə yeriyirdik qorxusuzca! Gələcəyə inamla addımlayan qəhrəmanlar idik biz. Bir dövlətin, bir millətin, bir xalqın gələcəyi bizim əlimizdə idi. Bunu hamımız yaxşı dərk edirdik. Şübhə belə etmirdik qələbə qazanacağımızdan. Düşmənin üstünə yeriyirdik qorxusuzca. İnamla, sevinclə, zəfər qoxulu xəyallarla...*

Bir saat idi ki, yol gedirdik. Posta çatmağımıza az qalmışdı. Hamı ehtiyatla hərəkət edirdi. Hər an hər şeyə hazır olmalı idik. Meşənin qalın ağaclarının araları “hədiyyələrlə” dolu ola bilərdi. Buna görə də daha diqqətli hərəkət edirdik. Bir qədər də getdikdən sonra Kapitan Sarıyev dayanmağımız üçün işarət verdi. Hər kəs bir dizinin üstünə çökərək komanda gözləməyə başladı və ikinci işarə gəldi. Postun yaxınlıqlarında idik. Qruplara bölünərək cəld yerlərimizi almağa başladıq. Ehtiyatla hərəkət edirdik. Bir yanlış hər şeyi məhv edə bilərdi. Postun atəşə tutulması kapitan Sarıyevin ilk atəşindən sonra başlayacaqdı. Səbrlə onun tətiyə basmağını gözləyirdik. Bir neçə dəqiqə daha keçdi. Əsəblər tarıma çəkilmək üzrə idi. Tətiyə basmamaq üçün özümü güclə saxlayırdım. Qaranlığın arasından düşməni görə bilirdim. Buna ay işığı da kömək edirdi. Bu gün bizim günümüz olmalı idi.

Bir neçə dəqiqə daha keçdi və budur, kapitan Sarıyev ilk atəşi açdı. Ardınca hamımız silahlarımızı işə salmağa başladıq. Qaranlıq göy üzü qırmızı işığa bürünmüşdü sanki. Toplar, mərmilər bir-biri ilə yarışırdı. Komandirin dediyi kimi düşmən bu postu çox ciddi qoruyurdu. Əsgər sayı silah partlamalarından bəlli olurdu. Bizsə hər tərəfdən onları dövrəyə almağa çalışırdıq.

– Sağdan və soldan yavaş-yavaş irəliləcəyik. Əmrimi gözləyin! – Kapitan Sarıyev qışqıraraq dedi.

– Oldu! – deyə hamımız cavab verdik.

Bir neçə dəqiqə davam edən qarşılıqlı atışmadan sonra kapitan Sarıyevin əmri ilə yavaş-yavaş posta doğru addımlamağa başladıq. Hər kəs çox ehtiyatlı idi. Düşmənsə, durmadan atəş açır, minaatanlardan qarşılıq verirdi. Mən sakit addımlarla irəliləyirdim. Həm atəş açır, həm də əsgər yoldaşlarımı qorumağa çalışırdım. Bir neçə addım daha atmışdım ki, yanıma düşən top mərmisinin ayaqlarımı yerdən kəsməsi ilə torpaq təpəciyə çırpılmağım bir oldu. Gözlərimi açsam da, hərəkət etməkdə çətinlik çəkirdim. Qulaqlarımdakı cingiltili səs bütün bədənimi keyidirdi. Bir neçə saniyə də yerdə uzanmış vəziyyətdə qaldıqdan sonra əllərimlə bədənimi yoxlamağa başladım. Qəlpə yarası yox idi. Sadəcə, sinəmdə... qəlpə qoruyucu jiletə ilişib qalmış, bədənimə xəsarət verə bilməmişdi. Özümə tam gəldikdən sonra cəld ayağa qalxıb ətrafa baxdım. Döyüş hələ də davam edirdi.

– Muradov, yaxşısan?! – Hüseynovun səsini eşidirdim.

– Yaxşıyam, – deyə qarşılıq verdim.

Silahımı alıb yenidən post tərəfə nişan alanda qarşımda qanlar içində birini gördüm. O, dərindən nəfəs alır, inilti ilə özünü qorumağa çalışırdı. Cəld əyilərək özümü yanına tulladım.

– İsmayılov?! İsmayılov?! – Əlimlə üzünə toxundum. Ancaq ondan cavab gəlmirdi.

– Ihhhhh....Ihhhh...

Haradan yaralandığını öyrənmək üçün əlimlə bədənini yoxlamağa başladım. Qaranlıq olduğundan aydın görmək mümkün deyildi. Ancaq qanın ay işığında parıltısı gözümə dəydiyində dizindən yaralandığına əmin oldum. Qəlpə dizini parçalamış, diz qapağını yerindən çıxarmışdı. Cəld bel kəmərimi çıxarıb dizinin üstündən bərk bağladım. Qanaxmanın qarşısını almağa çalışsam da bu heç də mümkün görünmürdü. Üzümü əsgər yoldaşlarım tərəfə çevirib qışqırmağa başladım:

– Kərimzadə, bura gəl! Tez ol!

– Atəş açırlar, gələ bilmirəm. – Bir az aralıdan Kərimzadənin səsi gəldi.

– Tibb çantasını bura at! Tez ol! Yaralı var!

– Atıram! – deyə Kərimzadə mənim səsimin gəldiyi istiqamətə tibb çantasını fırladaraq atdı.

Tibb çantası məndən bir neçə metr aralığa düşmüşdü. Sürünərək tibb çantasını alıb yenidən İsmayılovun yanına qayıtdım.

– Qorxma... qorxma, İsmayılov! Sən yaxşı olacaqsan! – Tibb çantasını açaraq içindən sarğını çıxardım. Dizini ehtiyatla sarımağa başladım. Bu yolla dizinə mikrob keçməsinin qarşısını alacaqdım. – Susma, İsmayılov! Danış!

Dizini sarıdığım vaxt onu da dindirməyə çalışırdım. Ancaq ondan səs gəlmirdi. Başımı qaldırıb gözlərinə baxdım. İsmayılovun başı yana tərəf əyilmişdi. Əlimlə başını dikəltməyə çalışdığımda əlimə isti maye toxunduğunu hiss etdim. Bu qan idi. İsmayılov başından da yaralanmışdı. Həyatım boyunca ilk dəfə idi ki, bu cür halla qarşı-qarşıya qalmışdım. İsmayılov gözlərimin önündə can vermişdi. İki əlimlə yaxasından yapışaraq silkələməyə başladım.

– Oyan, İsmayılov! Oyan! Sən yaşamalısan! – Ancaq çox gec idi. İsmayılov Şəhid olmuşdu.

Döyüş isə hələ də davam edirdi. Silahımı alaraq döyüş yoldaşlarıma qatılmalı, özümü itirməməli idim. Ayağa qalxaraq silahımı düşmənə tərəf tuşladım və bütün hirsimlə tətiyi basmağa başladım.

– Komandir, postda nəsə baş verir. – Ağayevin qışqırıq səslərini eşitdim.

– Dəstə gəldi! – Kapitan Sariyev ona cavab verərək dedi.

Bunu eşidən əsgərlər daha da cəsarətlə irəliləməyə başladı. Biz bir anın içində posta girmiş, düşməni məhv etməyə başlamışdıq. Qazılan səngərlər düşmən qanının rənginə boyanmışdı. Xüsusi Təyinatlı Dəstə arxadan hücuma keçərək düşmənin gözlənilmədən qolunu-qanadını sındırmışdı. Biz bu işdə onlara yaxından kömək etmişdik. Post alınmış, düşmən məhv edilmiş, üçrəngli bayrağımızı posta sancmış, qələbə qazanılmışdı. Sevincli idik.

Həmin gecə elə orada, postda keçirdik. Yaralılara ilk yardım etdikdən sonra gəldiyimiz yolla hərbi hissəyə göndərmişdik. Şəhid yoldaşımız İsmayılovu da onlar aparmışdı. Bir yandan sevinir, bir yandan da İsmayılov üçün kədərlənirdik. Gözlərimin önündə can verdiyindən bu mənə daha çox təsir etmişdi. Ona heç cür yardım edə bilməmişdim. Bu məni dərindən yaralamışdı.

***

Səhərin közərən işıqları bizi yeni günə hazırlayırdı. Hamıda gecənin yorğunluğu var idi. Növbə ilə göylərə sancılmış üçrəngli bayrağımızı qorumaq üçün

oyaq qalır, yatan yoldaşlarımızın keşiyini çəkirdik. Hərə bir yerə atmışdı yorğun bədənini dincəlmək üçün. Torpaq olmuşdu yorğanımız, sərt qayalar olmuşdu yastığımız, havanın soyuğu almışdı ağuşuna bizi. Biz Vətən üçün burada idik, Vətən üçün...

– Niyə fikirlisən?

– Nə bilim, Hüseynov. – Gözlərimi yerdən ayıraraq onun üzünə baxdım.

– İsmayılovu düşünürsən?

– Hə. – Qısaca cavab verdim.

– Onun kamazda dediyi sözlər hələ də yadımdan çıxmır. – Ağayev dərindən nəfəs alaraq dedi.

– Qoruya bilmədik onu, Hüseynov. Bacarmadıq.

– Bu sənin günahın deyil, Şəhriyar. Heç birimizin günahı deyil.

– Nə bilim.

Başımı qaldıraraq göy üzünə baxdım. Günəş çıxmaq üzrə idi. Hava aydınlanırdı. Göy üzü tərtəmiz, buludsuz idi. Sanki hər şeydən xəbərsiz idi.

– Sən neynirsən orda, Dadaşov?

– Heç, Hüseynov. Məktub yazıram.

– Nə məktubu? – Bu səfər Kərimzadə sual verdi.

– Şəhid olsam, ailəmə versinlər deyə məktub yazıram. – Dadaşov göy gözləri ilə bizi süzdü. – Niyə elə baxırsınız? Məncə siz də yazın. Siz elə bilirsiz, sizə heç nə olmayacaq? Bunu heç kim bilə bilməz. Ona görə nə qədər gec deyil, ürəyinizdə olanları tökün vərəqlərə. Mənim kimi. – Dadaşov kağızı büküb gilizin içinə qoydu. Sonra onu iplə bağlayıb boynundan asdı.

– Bəlkə də sən düz deyirsən. Yazmaq lazımdır. – Hüseynov gülümsəyərək dedi.

– Biz hələ çox şey görəcəyik burda. Yolumuz uzundur.

– Düzdür, Muradov. – Ağayev qoluma toxundu.

Təpənin başında söhbətləşdiyimiz vaxt kapitan Sarıyev yanımıza gəldi.

– Hazırsınız?

– Nəyə, cənab kapitan? – Ayağa qalxaraq dedim. Mənlə bir yerdə o biri əsgərlər də ayağa qalxdılar.

– Hara gedirik? – Kərimzadə sual verdi.

– İrəliyə, uşaqlar. Bizim burada işimiz bitdi. Artıq bizi əvəz edəcək qrup yoldadır. Tezliklə burada olacaqlar. Özləri ilə yemək də gətirirlər. Qidalandıqdan sonra qabağa gedəcəyik. Yolda başqa bir qrupla da birləşib qüvvətlənəcəyik.

– Bəs yolumuz haradır, cənab kapitan?

– Muradov, koordinatlar haranı göstərsə, ora. – Kapitan qısaca cavab verdi.

– Başa düşdüm, cənab kapitan. – Onun nə demək istədiyi hamımıza aydın idi. Gizlilik qorunub saxlanırdı.

– İndi isə dincəlin, istirahət edin. Yolumuz uzun olacaq.

– Oldu. – Hamımız bir ağızdan dilləndik.

***

İki saatdan sonra olduğumuz yeri artıq tərk etmiş, kamaz markalı avtomobillərlə irəliyə, düşmənin üstünə gedirdik. Yolumuz elə də uzaq deyildi. Kapitan Sarıyevin dediyinə görə, kəndə hücum etməli idik. Ancaq ilk öncə digər qrupla birləşəcəkdik.

Avtomobil bir saatdan sonra anidən dayandı. İlk öncə nə baş verdiyini anlamasaq da, silahlarımızı hazır vəziyyətə gətirdik.

– Hər kəs aşağı düşsün. – Səs kapitanın idi.

Hamımız aşağı enərək ətrafa göz gəzdirməyə başladıq. Digər qrup çoxdan deyilən yerə gəlib çatmışdı.

– Xoş gəldiniz, cənab kapitan.

– Sağ olun, cənab mayor.

Komandirlər bir-birləri ilə görüşdükdən sonra kapitan Sarıyev bizi göstərərək dedi:

– Bizim igidlər bunlardır.

– Halal olsun sizə.

– Sağ ol. – Hamımız bir ağızdan dedik.

– Mənim igidlərim də bunlardır. – Mayor öz qrupunu göstərdi. – Və bu da baş-leytenant Aslanov. – Mayor bir az aralıda dayanan hündürboy, enlikürək, sarışın leytenantı göstərdi.

Kapitan Sarıyev onlara baxaraq gülümsədi.

– Cənab mayor, indi nə edəcəyik?

– Sarıyev, önümüzdə bir kənd var, ancaq ondan öncə kiçik post qurub ermənilər. O postu yarıb kəndə girməliyik.

– Kənddə düşmən var?

– Siz gələnə kimi yoxladıq, deyəsən heç kim yoxdur. Kənddə qalanlar çoxdan çıxıb gedib.

– O zaman postdakılar ora gedə bilər.

– Biz elə etməliyik ki, onların işini postda bitirək. Kəndə çəkilsələr, işimiz çətin olacaq.

– Başa düşürəm. O zaman tərpənsək yaxşı olar.

– Düzdür. – Əli ilə təpəni göstərdi. – Bu təpə ilə gedəcəyik. Minalanmamış yeganə ərazi oradır.

– Oldu.

Kapitan Sarıyev mayordan aralanaraq bizə yaxınlaşdı.

– Hər şeyi eşitdiniz. Ehtiyatlı olmalıyıq. – Üzünü gizir Alıyevə döndərdi. – Alıyev, çavuş Daşdəmirovla sən öndə gedəcəksən. Hər şeyə diqqət etməlisiniz.

– Oldu, cənab Kapitan, – deyə gizir dedi.

– O zaman yola çıxaq. – Yenidən üzünü bizə çevirdi. – Dünən göstərdiyiniz şücaəti burada da sizdən gözləyirəm. İnanıram ki, bu əmri də layiqincə yerinə yetirəcəksiniz. Hər biriniz mənim gözümdə qəhrəmansınız.

– Sağ ol. – Hamımız bir ağızdan dedik.

Hər şey razılaşdırıldıqdan sonra kəndə doğru yola düşdük. Gizir Alıyev və çavuş Daşdəmirov öndən gedir, bizə yol açırdı. Bizsə onların ardınca irəliləyirdik. Posta yüz metr qalmış təpənin arxasında gizlənərək hücum əmrini gözləməyə başladıq. Hər kəs mayor Hacıyevin atəş əmrini gözləyirdi. Bir neçə dəqiqə daha keçdikdən sonra mayor əmri verdi və postu atəşə tutmağa başladıq. Hər tərəfdən postu silahlardan atəşə tutur, ermənilərin gözlərini açmağa imkan vermirdik. Getdikcə irəliləyir, posta yaxınlaşırdıq. Bu səfər daha diqqətli olmağa, özümlə bərabər yoldaşlarımı da qorumağa çalışırdım.

– Muradov, qumbaran var?

– Var, komandir. – İki metr uzağımda duran kapitan Sarıyevə dedim.

– Posta ata bilərsən?

– Ataram.

– Burdan ora qırx metrdən çox məsafə var. Əminsən?

– Əminəm, cənab kapitan.

– Onda at getsin.

– Oldu, – deyə əl qumbarasını sol yanımdan çıxarıb əlimdə rahatladım.

Yoldaşlarımdan aralanaraq əyilib arxaya tərəf addımladım. Dərindən nəfəs aldım və qumbaranın halqasını çıxarıb irəli doğru qaçmağa başladım. Özümü hazır hiss etdiyim anda bütün gücümlə qumbaranı posta tərəf atdım. Qumbara hədəfə çatmışdı. Səngərə düşdüyü zaman qumbaranın patlaması ilə inilti səslərinin gəlməsi bir olmuşdu.

– Halal olsun, Muradov. Birini də at. – Mayor Hacıyev sevinərək dedi.

Mən ikinci, üçüncü dəfə də qumbaranı eyni sürətlə səngərlərə atır, düşmənin inilti səslərini eşitdirirdim.

– Şəhriyar, bizə kimsə qoymadın. İmkan ver də. – Hüseynov üzümə baxaraq zarafatla dedi.

– Sənə qurbandı, al birini də sən at, – deyə qumbaranı ona uzatdım.

Hüseynov qumbaranı alaraq halqasını çıxartdı.

– Çox saxlama əlində, at getsin. – Hüseynovun qumbarayla əlləşdiyini gördüm.

– Yaxşı. – Hüseynov məni eşidib qumbaranı posta tərəf tulladı.

Qumbara posta çatmamış havada partladı. Ancaq qəlpələri səngərlərə saçıldığından effekti çox güclü olmuşdu.

– Birazda saxlasaydın, bizim qışqırığımız yayılacaqdı.

– Yaxşı qurtardıq. – Hüseynov gülməyə başladı.

– Posta giririk. Ehtiyatlı olun. – Mayor qışqıraraq xəbərdarlıq etdi.

İki cinahdan da posta doğru irəliləyir, ehtiyatla düşmən yatağına yaxınlaşırdıq. Ancaq biz ora çatdığımızda nə məhv ediləcək düşmən qalmışdı, nə də post. Hər yer dağıdılmışdı. Səngərlər qan qoxusu ilə dolmuşdu. Hər tərəfdə parçalanmış bədənlər, dağıdılmış üzlər vardı. Ehtiyatla postda gəzir, sağ qalmış erməni axtarırdıq.

– Bura təmizdir.

– Bura da təmizdir.

– Burda da heç kim yoxdur.

Postun hər tərəfindən səslər gəlir, kimsənin olmadığını bildirirdilər.

– Cənab mayor, bura gəlin, – deyə postun sonundan kiminsə qışqırığı eşidildi.

Hamımız dərhal o tərəfə qaçmağa başladıq. Səs gələn tərəfə çatdığımızda gözlərimizə inana bilmədik. Düşmən əsgərlərinin ölü bədənləri ayaqları zəncirlənmiş halda yerdə uzanmışdı.

– Vəhşilər! Əsgərlərinin ayaqlarını zəncirləyiblər ki, heç yerə qaça bilməsinlər. Gör kimlərlə döyüşürük. Hamının üstünü axtarın. Rütbəli kimsə var ya yox yaxşı baxın! – Mayor Hacıyev hamımıza göstəriş verdi.

Bütün postu ələk-vələk edir, ölənlərin rütbələrini tək-tək yoxlayırdıq. Ancaq heç nə tapa bilməmişdik. Gizir Alıyev bütün axtarışlardan sonra mayor Hacıyevin yanına gələrək dedi:

– Cənab mayor, heç bir rütbəli yoxdur.

– Onda kənddə olmalıdırlar. Gizlənəcəkləri başqa yer yoxdur.

– Hamısı ora qaçıb deyirsiniz? Görəsən, neçə nəfərdilər?! – Kapitan Sarıyev mayordan soruşdu.

– Çox ola bilməzlər. Yuxarı ilə danışacam, görək nə deyirlər. – Mayor rabitə vasitəsi ilə mərkəzlə əlaqə saxlamağa çalışdı. – Cənab general, verilən koordinatlara

əsasən postu ələ keçirdik. İtki və yaralı yoxdur.  Axtarış zamanı heç bir rütbəli şəxs tapılmadı. Ehtimal olunur ki, kənddə gizləniblər.

– Təbrik edirəm, Hacıyev. Ancaq kəndi bugün gün sonuna kimi geri almalısınız. – Xəttin digər tərəfindən səs gəldi.

– Oldu, cənab general.

– Uğurlar, Hacıyev.

– Sağ olun, cənab general. – Əlaqə kəsildi.

Bu arada mən kənarda dayanaraq danışılanlara qulaq asır, nə edəcəyimizi anlamağa çalışırdım.

– Generalın dediyini eşitdin, Sarıyev. Kəndə giririk.

– Oldu, cənab mayor.

– Hazır olun.

Bütün hazırlıqlar bitdikdən sonra postu tərk edərək kəndə doğru enməyə başladıq. Mayor Hacıyevin dediyinə görə mütləq kənddə kimsə olmalı idi. Çünki postda heç rütbəli yox idi. Bu da onların kəndə qaçdıqlarını göstərirdi.

– Buralar lap bizim tərəflərə oxşuyur.

– Sizin tərəflər haradı ki? – Hüseynov Kərimzadəyə baxdı.

– Lənkəran.

– Həə. Azərbayandı da hər tərəf. Oxşamalıdır.

– Düz deyirsən, Muradov. – Kərimzadə gülümsəyərək dedi.

– Görəsən, kənddə neçə erməni olar?

– Bilmirəm, Quliyev. Mayor Hacıyevin dediyinə görə az olmalıdır. Ancaq nə fərqi var? İt kimi qırılacaqlar. – Silahın ucunu göstərərək dedim.

– Şərəfsizlərdən qurtula bilmirik də. Bu qədər vəhşilik edirlər, hələ də utanmadan vuruşmaq istəyirlər.

– Hüseynov, onlar vuruşan olsaydı, əsgərlərini qoyub qaçmazdılar. İndi yəqin ki, kənddə gizlənməyə yer axtarırlar.

– Hələ qabağıma çıxsınlar. Onda gör neyləyəcəm mən onlara. – Hüseynov gözlərini bərəldərək dedi.

Kəndin əlli metrliyində mayor Hacıyev ehtiyatlı olmağımızı bildirdi. Qruplara bölünərək kəndə girməli, sağ qalan erməniləri məhv etməli, bacardığımız təqdirdə əsir götürməli idik. Hamımız çox ehtiyatlı idik. Mən, Hüseynov, Quliyev,  və Kərimzadə bir yerdə irəliləyirdik. Bir-bir evlərə girir, bütün otaqları yoxlayırdıq. Kimisə tapmaq ümidi ilə hər yeri ələk-vələk edirdik. Ancaq ortada heç kim yox idi. Kəndin ortasına çatdıqda iki mərtəbəli evin həyətinə yenicə girmişdik ki, Quliyev kimisə görüb silahını işə saldı. Qarşı tərəf də atəşlə cavab verməyə başladı.

– Hüseynov, evin arxasından dolan. Biz onun başını qatacağıq burda.

– Yaxşı, – deyə Hüseynov bizdən aralanaq evin həyətindən çıxdı.
Düşmən su çəninin arxasına keçmişdi. Onu orada vurmaq çətin olacaqdı. Buna görə də biz yerimizi dəyişməli idik.

– Uşaqlar, siz atəş açmaqda davam edin, mən ikinci mərtəbəyə qalxan pilləkənlərə tərəf gedəcəm. – Əlimlə evi göstərdim.

– Ehtiyatlı ol. – Kərimzadə dedi.

Əyilərək evə doğru qaçmağa başladım. Bu zaman geridə qalanlar çənə doğru atəş açmaqda davam edirdilər. Pilləkənin arxasına keçərək uyğun mövqe tutmağa çalışdım. Ancaq çənin arxasında heç kim yox idi. Düşmən yer dəyişmişdi. İrəli gedərək onun hara yoxa çıxdığına baxmaq istədim. Elə bu an odunların yığıldığı yerdən kimsə anidən çıxıb silahını mənə tərəf tuşladı. Bu düşmən idi. Onun silahını mənə tərəf tuşladığı bir neçə saniyədə hər şeyin bitdiyini zənn etmişdim. Ancaq anidən Hüseynovun arxadan çıxaraq erməni hərbçisini vurub yerə sərməsi işləri dəyişdirmişdi. Bütün darağı erməninin üstünə boşaltmışdı. Gözlərinin necə böyüdüyünü, bütün hirsini qarşısındakı erməniyə tökdüyünü gözlərimlə görürdüm.

– Hüseynov, yaxşı! O artıq cəhənnəmlik oldu. – Silahını əlindən aldım.

Hüseynovunsa, hirsi soyumurdu.

– Silahı sənə tuşlamışdı.

– Başa düşürəm. – Onu sakitləşdirməyə çalışırdım.

Səsə o biri yoldaşlarımızda qaçaraq gəlmişdi. Yerdə uzanmış erməni hərbçisini görüb sevinmişdilər.

– Əsir götürə bilərdik.

– Əsir götürməyə çalışsaydım, Muradov olmayacaqdı! – Hüseynov əsəblə Quliyevə dedi.

– Çox sağ ol, Hüseynov. Məni xilas etdin. – Qoluna toxunaraq dedim.

Hüseynov bu sözümdən sonra sakitləşdi. Gülümsəyərək başını yellətdi.

– Artıq buranı tərk etsək yaxşı olar. O biri evləri də axtarmalıyıq. – Kərimzadə dedi.

– Bir dəqiqə. Səsi siz də eşidirsiz? – Quliyev sakit olmağımızı istədi. Sonra isə əli ilə evi göstərdi.

– Hə, Quliyev. Uşaq səsidir. – Evə tərəf boylandım.

– Orda kimsə var, deyəsən. – Hüseynov silahını məndən alaraq evə tərəf addımladı.

– Ehtiyatlı olmaq lazımdır. Tələ də ola bilər. – Hüseynovun arxasıyca getdim.

Dördümüz də evə yaxınlaşıb birinci mərtəbənin pəncərəsindən içəri boylandıq. İçəridə üç-dörd yaşlarında uşaq yerdə oturub ağlayırdı. Otaqda ondan başqa heç kim yox idi.

– Bu uşağın burada nə işi var?

– Bilmirəm, Quliyev. Ancaq, deyəsən kənddə qalanlar qaçarkən uşağı qoyub gediblər.

– Əə bunlar nə insafsız insanlardır. Adam uşağını qoyub qaçar heç?! – Hüseynov qapıya yaxınlaşmaq istədi.

– Dur, Hüseynov! – Əlimlə qolundan tutdum.

– Nə olub? – deyə Hüseynov geri çəkildi.

– Qapını açdığın anda hamımız havaya uçacağıq. Ora bax! – Əlimlə yatağın altını göstərdim.

Pəncərədən aydın görülməsə də, diqqətlə baxıldığında yatağın altında qeyri-adi, orta böyüklüyündə bomba quraşdırıldığını görmək olurdu. Bombanın halqasına ip sarılmışdı. İpi də qapının dəstəyinə bağlamışdılar ki, qapı açıldığında halqa yerindən çıxsın və partlayış baş versin.

– Yəqin ki, ölən hərbçi son anda etmişdi bunu. Uşağı da yem olaraq istifadə edəcəkdi.

– Şərəfsizlərdən hər şey gözləmək mümkündür, Muradov. – Quliyev erməni leşinə baxdı. – Bəs indi nə edəcəyik?

– Heç nə. Uşağı xilas etməliyik. Hamınız qırağa durun. – Kərimzadə önə keçərək dedi. – Bombanı zərərsizləşdirməliyik.

– Bacara biləcəksən? – Kərimzadəyə baxdım.

– Çalışacağam. Ancaq burdan uzaq durun. Bir şey olsa, bir mənə olsun. Siz sağ qalın.

– Elə şey olmaz, Kərimzadə. Nə olacaqsa, hamımıza olsun. Səni burda tək qoya bilmərik.

– Hüseynov, mübahisə etməyin mənası yoxdur. Ən yaxşı fikir budur. Qırağa durun!

– Kərimzadə, sən işini gör. Bizə fikir vermə. Biz elə burda qalacağıq! – Quliyev də dilləndi.

– Hamını eşitdin də, Kərimzadə. Biz burdayıq. Sən bombayla məşğul ol! – Mən də öz sözümü dedim.

– Yaxşı. Sizi başa salmaq mümkün deyil.

– Nəysə! İndi nə edəcəyik? Qapını açsaq, bomba partlayacaq. Başqa yol tapmalıyıq.

– Muradov, uşağı razı sala bilsək çox yaxşı olar.

– Yəni, deyirsən bombanı bizə gətirsin? – Kərimzadəyə baxdım.

– Hə, elədir. – Uşağı göstərərək dedi.

Dördümüz də pəncərənin qabağında dayanıb uşağa baxırdıq. Uşaq artıq ağlamırdı. Uzaqdan bizi izləyir, kim olduğumuzu anlamağa çalışırdı. Bizsə, gülümsəyərək onunla oynamaq istədiyimizi göstərir, uşağın bizə tərəf gəlməsini istəyirdik. Gah əllərimizlə heyvanları təqlid etməyə çalışır, gah da uşaq kimi danışaraq onu güldürürdük.

– Günümüzə, saatımıza bax da! Müharibəyə gəlmişik. Bir uşağa görə burda meymunluq edirik. – Hüseynov rişxəndlə dedi.

– O, uşaqdır. Nə bilir müharibə nədir. – Quliyev Hüseynova baxdı.

– Bombanı zərərsizləşdirmək üçün başqa yolumuz yoxdur. – Onlara göz vuraraq sakit olmalarını dedim.

Bu arada Kərimzadə uşaqla dil tapmışdı. Əli ilə yatağın altını göstərir, uşağı yönləndirirdi. Deyəsən, Kərimzadənin cəhdləri baş tutmuşdu ki, uşaq onun işarəsi ilə yatağın altına əyilərək bombanı ordan götürdü.

– İndi isə onu ver əmiyə. – Kərimzadə gülümsəyərək uşağı özünə tərəf çağırdı.

Uşaq əvvəl əlində tutduğu bombanı vermək istəməsə də, sonradan razı olub yavaşca pencərəyə tərəf addımladı. Pəncərənin dəmir barmaqlıqları arasından onu Kərimzadəyə uzatdı.

– Halal olsun sənə. Axır ki, bacardın. – Əlimlə Kərimzadənin çiyninə toxundum.

– İndi nə edəcəksən?

– Heç nə, Quliyev. Halqaya sarılmış ipi kəsəcəm.

– Onda kəs, Kərimzadə. – Hüseynov cibindən bıcağı çıxartdı.

İpi kəsdikdən sonra hamımız dərindən nəfəs aldıq. Hər şey bitmişdi. Bombanı torbaya ehtiyatla qoyduqdan sonra otağa daxil olduq. Çox ehtiyatlı davranırdıq. Hər an hər şey ola bilərdi. Qapını açıb içəri girdik. Qapının açılması ilə uşağın əllərini açaraq Kərimzadəni qucaqlaması bir oldu. Kərimzadə də uşağı qucağına götürüb yanağından öpdü.

– Alçaq böyüklərin qurban olsun sənin bir telinə. – Hüseynov uşağın başını sığallayaraq dedi.

Uşağı da götürüb oranı tərk etdik. Artıq orada işimiz qalmamışdı. Mayor Hacıyevin dediyi yerə tələsirdik. Biz ora çatdığımızda artıq bir neçə qrup çoxdan orada idi. Kapitan Sarıyev bizi görüb təəccüblə dedi:

– Bu uşaq hardan?

– Komandir, uşağı evlərin birindən tapdıq. Bir də bunu qoymuşdular. – Torbadan bombanı çıxardım. – "Hədiyyə".

– Halal olsun, uşaqlar. Yaxşı iş çıxardınız.

– Uşağı yəqin ki, valideynləri qaçarkən qoyub gediblər.

– Ola bilər. Şərəfsizlərdən nə desən gözləmək olar.

– Bir də erməni hərbçisi vardı. Əsir götürə bilmədik. Hüseynov məni xilas edərkən öldürdü.

– Yaxşı edib. Afərin, Hüseynov.

– Sağ ol. – Hüseynov gülümsəyərək cavab verdi.

– Uşağı nə edək, cənab kapitan?

– Mayor Hacıyev gəlsin. O zaman qərar verərik. – Kapitan Sarıyev Kərimzadəyə baxdı.

Bizim danışdığımız ərəfədə mayor Hacıyev digər qruplarla kəndin mərkəzində göründülər. Yanlarında bir erməni hərbçisi də var idi. Ayağından yaralandığından axsayırdı.

– Cənab mayor, deyəsən əliboş gəlməmisiz. – Kapitan Sarıyev gülərək dedi.

– Hə. Üçündən bir bunu sağ ələ keçirə bildik. – Ermənini yerə yıxdı.

– Nə olar, məni öldürməyin. Nə istəsəniz deyərəm. – Erməni yerə yıxılan kimi rusca yalvarmağa başlamışdı.

– Ə sakit dur! Sən kimsənki nə də deyəsən? – Mayor Hacıyev onun üstünə qışqırdı.

– Kül sənin kişi başına. Əsgərlərini qoyub qaçan komandir olar?! – Kapitan Sarıyev dizi ilə yaxasından vurub itələdi.

– Bu şərəfsizi birazdan gəlib aparacaqlar. Onlar dindirər artıq. Sonra... – Mayor Hacıyev uşağı görüb sözünü yarımçıq saxladı. – Bu uşaq kimindir?

– Bizimkilər tapıblar. Evlərin birindən. “Hədiyyə” qoyub şərəfsizlər. Onlar da hədiyyəni zərərsizləşdirib, bir ermənini də öldürüblər. Uşağı da götürüb gəliblər.

– Halal olsun. Yaxşı ediblər. – Mayor Hacıyev gülümsəyərək qürurla bizə baxdı. – O zaman uşağı da aparalar. Qalanı onların biləcəyi şeydir.

– Biz nə edəcəyik, cənab mayor.

– Heç. Bu kənddə qalacağıq.

– Nə qədər?

– Onu mən də bilmirəm, Sarıyev. Əmr gələnə qədər. Nə vaxt əmr versələr, yola düşəcəyik.

– Oldu, cənab mayor.

Bir neçə saatdan sonra hərbi avtomobillər gələrək əsirlə uşağı götürüb getdi. Biz yenə orada qaldıq. Döyüş hələ bitməmişdi. Yolumuz hələ uzun idi.

***

Artıq müharibə daha da qızışır, ordumuz düşmənə layiqli cavabı verirdi. Ard-arda əldə edilən qələbələr bütün dünyaya bizim hansı gücdə olduğumuzu göstərirdi. Bizsə kənddə bir neçə gün idi ki, səbrlə gözləyir, yeni gələcək tapşırıq üçün həyəcanlanırdıq.

– Sarıyev, hazırlaşın. – İçəri daxil olan mayor Hacıyev gülərək dedi.

– Gedirik, cənab mayor?

– Hə, Sarıyev. Yuxarıdan tapşırıq gəldi.

– Nə edəcəyik?

– Hadrut istiqamətində yola düşən düşmən qüvvələrinin qarşısını kəsəcəyik. Onları yaxşıca qarşılamalıyıq.

– Mütləq, cənab mayor. – Kapitan Sarıyev gülərək dedi.

Biz bu arada otağın sağ küncündə silahları təmizləyirdik. Mayor Hacıyevin dediklərini eşidib işimizi daha da sürətləndirməyə başladıq.

– İki saata yola düşməliyik. Hamıya xəbər ver. Hazır olsunlar.

– Oldu, cənab mayor.

Mayor Hacıyev son tapşırığını verib otaqdan çıxdı. O çıxdıqdan sonra kapitan Sarıyev üzünü bizə çevirib sözə başladı:

– Mayor Hacıyevin dediklərini yəqin ki, siz də eşitdiniz. Tələsin! Yola çıxırıq. – Sözünü bitirib o da çölə çıxdı.

– Muradov, bizə yol göründü, deyəsən. Hə?

– Hə, Hüseynov. Neçə gündür ki, oturmuşuq burda. Elə bilirdim bizi yaddan çıxarıblar.

– Hər şeyin öz vaxtı var. – Quliyev mənə baxdı. – Onlardan yaxşı bilməyəcəyik ki!

– Düzdür. – Kərimzadə ayağa qalxdı. – Onda hazır olmaq vaxtıdır. Silahları daşımalıyıq.

– Ya Allah! – deyə Qəribov da ayağa qalxdı. – Durun getdik!

Yarım saatın içində hər kəs hazır vəziyyətdə idi. Plan hazırlanmış, hücum və müdafiə sxemi bütün əsgərlərə izah edilmişdi. Hər kəs üzərinə düşən məsuliyyətin fərqində idi.

Mayor Hacıyevin son sözlərindən sonra hamı avtomobillərə minmiş, yola düşməyə başlamışdıq. Havanın qaranlığında verilən koordinat üzrə irəliləyəcəkdik. Pusqu qurulduqdan sonra isə səhərə kimi düşmənin gəlməsini gözləyəcəkdik. Tapşırığımız heç bir düşmən əsgərinin Hadruta yaxınlaşmasına icazə verməmək idi. Əgər pusqu uğursuz olsa, Hadrutun geri qaytarılma planı da uğursuz olacaqdı. Buna görə də heç bir uğursuzluğu düşünmürdük. Bu plan baş tutmalı idi.

Biz deyilən yerə çatdıqda hava çoxdan qaralmışdı. Mayor Hacıyevin əmri ilə yol qazılmış, partlayıcı maddələr yola düzülmüşdü. Geriyə düşməni gözləmək qalırdı.

*4 saat sonra*

– Cənab kapitan, burdan gələcəklərinə əminsiz?

– Hüseynov, şübhən var?

– Yox, Əstəğfurullah. Amma nə bilim, birdən gəlmədilər də. Onda nə olacaq?

– Gələcəklər, Hüseynov. Səbrli ol! Mütləq buradan keçəcəklər. – Kapitan Sarıyev yola baxaraq dedi.

– Komandir, başqa yolla gedə bilərlər? – deyə sual verdim.

– Yox, Muradov. İri texnikalarla ancaq buradan keçə bilərlər. Başqa yol mümkün deyil.

– Bəs piyada?

– Dağları aşmalıdırlar, Muradov. Ancaq narahat olmağa heç bir əsas yoxdur. Ehtimal olunan bütün yollar nəzarət altındadır. Ordumuz böyükdür. – Gülümsəyərək dedi.

– Başa düşdüm, cənab kapitan. – Son sözümü deyib susdum.

– Dörd saatdır burdayıq. – Quliyev əsnəyərək dedi. – Adamda səbr qalmır.

– Hərb işi səbr işidir. Bu işdə səbrli olmayan heç bir nəticə əldə edə bilməz. – Kapitan Quliyevə baxdı.

– Cənab kapitan, mən axı hərbçi deyiləm. Mənim işim banklarladır.

– Quliyev, bankda işləsən də, indi buradasan. Ona görə də həyatda gərək hər şeyə hazır olasan. Bir də ki, bankda da səbr lazımdır. Elə deyil?

– Düzdür, cənab kapitan. Onun da çətin tərəfləri var. Amma yenə də gecənin bir vaxtı, soyuqda, daşın üstündə uzanıb hansısa nanəcibi gözləmirsən axı. – Quliyev gülərək mənə göz vurdu.

– O da düzdür. – Kapitan sözünü bitirib üzünü Hüseynova çevirdi. – Hüseynov, sən nə deyirsən bu işə?

– Vallah, komandir, mən nə bankda işləyirəm, nə də hərbçiyəm. Mən sadə alverçiyəm. – Hüseynov başını silahın qundağına söykəyib dedi.

– Həə... bəs sənin işin necə idi?

– Komandir, hər gün səhər durub gedirəm bazara. Keçirəm yerimə. Topdançıdan aldığım meyvə-tərəvəzi düzürəm piştaxtaya. Başlayıram "təzə meyvədən qalmadı" deyə qışqırmağa.

Hüseynovun sözlərinə hamımız gülməyə başlamışdıq.

– Axşama kimi qışqırırsan?

– Yox, komandir. Axşama kimi qışqırmaq olar? O ki, alver qızışdı, sakitləşirəm. Axşama kimi malımı satıb düzəlirəm evə.

– Sənin işin də çətindi, Hüseynov.

– Bəs necə, komandir. Hələ yoxlamağa gələnləri demirəm. “Bu qutunu niyə qabağa qoymusan?”, “Yola niyə çıxmısan?”, “Qiymətləri niyə qaldırmısan?”... baş-beynimizi aparırlar.

– Sən də düz işlə də, Hüseynov.

– Mənim günahım deyil, komandir. Vallah mənlik deyil. Bazarın bir ucunda qiymət nə olursa, digər ucunda da eyni olmalıdır. Alverçi birliyi deyilir buna.

– Alverçi birliyi...

Kapitan Sarıyevin Hüseyinovun sözünü təkrarlaması hamımızı yenidən qəhqəhəyə boğmuşdu.

– Kərimzadə, bəs sən nə iş görürdün? – Kapitan ondan da soruşdu.

– Mən bir şirkətdə kompyuter mühəndisi işləyirəm, cənab kapitan.

– Kompyuterlərdən elə də başım çıxmır, ancaq yaxşı sahədir.

– Elədir, cənab kapitan. – Kərimzadə dedi.

– Bəs sən, Muradov? Sən nə iş görürdün?

– Mən heç nə, komandir. Polisliyə sənəd vermişdim. Onun xəbərini gözləyirdim. – Dərindən nəfəs aldım.

– Bəs cavab gəldi?

– Nə bilim, komandir. Bilmirəm ki. Sənədləri yeni vermişdim. Bura gəldiyim üçün də heç nədən xəbərim yoxdur.

– Başa düşdüm, Muradov. Narahat olma. Boy, buxunun yerindədir. Çağırarlar əlbət.

– Bəs komandir, siz bu sənəti özünüz seçmisiniz?

– Hə, Hüseynov. Mənim atam da hərbçi idi. Uşaq ikən itirmişəm onu. Birinci Qarabağ müharibəsində şəhid olub. Onun yolunu davam edirəm mən də.

– Allah rəhmət eləsin, – deyə bir ağızdan dedik.

Kapitan Muradovun sözləri hamımıza sükuta qərq etmişdi. Artıq heç birimiz bir kəlmə belə kəsmir. Sakitcə yolu izləyirdik.

Bir saat daha keçdi və anidən kiminsə qaraltısını gördük. Gələn çavuş Daşdəmirov idi. Yanımıza gələrək astadan dedi:

– Komandir, mayor Hacıyev deyir hazır olun. Gəlirlər.

– Oldu. – Kapitan Sarıyev çavuşu göndərib üzünü bizə tərəf çevirdi. – Hazır olun. Siçan tələyə gəlir.

Hamı sakitcə hərbi texnikanın partlayıcı yerləşdirilən yola çatmasını gözləyirdi. Artıq texnikanın səsi eşidilirdi. Plana əsasən, yolun müəyyən hissəsində partlayıcılar texnikanın ağırlığından partlayacaqdı, qalan partlayıcılar isə uzaqdan idarə ediləcəkdi.

Bir neçə dəqiqə daha keçdi və gözlədiyimiz kimi irəlidə gələn iki tank partlayıcının üzərindən keçmək istəyəndə partlayış səsləri eşidildi. Bunun ardınca mayor Hacıyev idarəedicini işə salmağı ilə digər partlayıcılar da işə düşdü. Ard-arda səslənən partlayış səsləri düşməni vahiməyə salmışdı ki, qışqırıq səsləri ətrafı bürüdü. Alovlar isə göy üzünə yayılmış, hər tərəfi işıqlandırırdı. Düşmən xeyli itki vermişdi. Sağ qalanlar alovların içindən pərakəndə şəkildə ətrafa səpələnir, nə edəcəklərini bilmirdilər.

– Hücuma keçirik!

Kapitan Sarıyevin əmrindən sonra təpələrin üstündən aşağı enərək sağ qalan düşmənləri də məhv etməyə başlamışdıq. Mən tankın yanına qaçaraq dərhal üstünə atılıb içində sağ qalan olub-olmadığını yoxladım. Sağ qalan yox idi. Silahımı qaldıraraq ehtiyatla irəliləyir, qabağıma çıxan düşməni məhv etmək üçün hazır vəziyyətdə dayanmışdım. Alovun istisində birazda qabağa getmişdim ki, yüksək rütbəli erməni hərbçisi anidən önümə çıxdı. Silahı ona tuşlayaraq öncə qıçından, sonra da sinəsindən atəş açdım. Ağrılar içində yerə yataraq can verməyə başladı. Ondan sonra iri daş parçasının arxasına keçərək kiminsə olub-olmadığını yoxladım. Ancaq gözə dəyən kimsə yox idi. İri daş parçasının arxasından çıxaraq biraz da irəli getdim. Döyüş yoldaşlarım hər tərəfdən düşməni mühasirəyə almışdılar. Hər tərəfdən atəş açır, düşməni məhv edirdik. Biraz da irəliləyərək iki erməni əsgərini daha öldürdüm. Elə bu an yaxınlıqdan səs eşitdim. Kimsə ağlayırdı. Silahı səs gələn tərəfə tuturaq addımlamağa başladım. Kamaz markalı avtomobilin arxa təkərinin yanında bir erməni əsgəri əllərini başının üstünə qoyaraq ağlayırdı.

– Yerə uzan! – Silahı ona tuşladım.

– Vurma! Vurma! Vurma! Nə olar! – deyə rus dilində ağlayaraq yalvarmağa başladı.

– Yerə uzan!

Mənim ikinci əmrimdən sonra əllərini boynunda birləşdirib yerə uzandı. Onunla nə edəcəyimi bilmirdim. İçimdəki qisas hissi onu öldür desə də, vicdanım buna imkan vermirdi. Ona görə də tətiyə basa bilmirdim.

– Sağ qalan yoxdur. – Uzaqdan səslər eşitdim.

– Burda əsir var, – deyə mən də qışqırdım.

Səsimə mayor Hacıyevlə, kapitan Sarıyev gəldilər.

– Muradov? – Kapitan Sarıyev yanıma çatıb yerdə uzanmış erməniyə baxdı.

– Ağlayırdı, cənab kapitan. Vura bilmədim. – Silahın lüləyini aşağı endirdim.

– Ən düzünü etmisən. – Mayor Hacıyev əlini çiynimə qoydu.

– Bunu özümüzlə götürəcəyik. Əsirlərlə dəyişmək üçün. – Kapitan Sarıyev dedi.

– Hə, Sarıyev. Elədir ki, var. – Əyilərək ermənin qolundan yapışdı. – Qalx ayağa!

Erməni isə hələ də ağlayır, yalvarırdı.

– Mən yuxarıya məlumat verəcəm. Bunun haqqında da deyərəm. Onlar bir qərar verərlər. – Mayor Hacıyev bizdən uzaqlaşdı.

– Onu niyə vurmadın, Muradov?

– İstədim, komandir. Ancaq nə bilim... onun yerində mən də ola bilərdim.

– Yazığın gəldi?

– Bilmirəm. Bəlkə də.

– Ancaq o da səni vura bilərdi.

– Döyüşmək istəsəydi, əlində silah olardı, komandir. Bunların çoxu zorla gətirilib bura. Bizim kimi deyillər. Özünün olmadığı torpaq üçün kim döyüşər ki?!

– Düz deyirsən. Ancaq unutma ki, qarşında ermənidir. Onların isə nə edəcəkləri bəlli olmaz. Amma əli silahsız birini vurmadığın üçün sənə afərin. – Kapitan gülümsəyərək dedi.

– Sağ olun, komandir.

– İndi isə gedək. Bizə verilən tapşırığı layiqincə yerinə yetirdik. Buranı tez zamanda tərk etməliyik.

Alovların içindən çıxaraq yolumuza davam edirdik. Bizə verilən tapşırığı itkisiz başa vurmuşduq. Mayor Hacıyev yuxarıyla danışmış, məlumat vermişdi. Danışıqdan sonra yanımıza qayıdanda üzü gülürdü. Dediyinə görə, ordumuz digər mövqelərdə də uğurla irəliləyirdi. Qələbə bizim idi. Biz buna layiq idik.

Ertəsi gün Hadrutun geri qaytarılması xəbəri hamımızı sevindirmişdi. Mayor Hacıyevə öz qrupu ilə cənuba doğru irəliləmək əmri verilmişdi. Biz isə şimala getməli idik. Orada başqa bir qrup bizi gözləyirdi. Hər verilən tapşırıq daha ağır idi, ancaq biz hər tapşırığın öhdəsindən gələcəyimizə inanırdıq.

***

– Yaxşıyam, sağ ol. Evdə vəziyyət necədi? Salamatçılıqdı? – Hüseynov telefonu tərsinə çevirib qulağına yapışdırdı. – Əşşi narahat olmayın. Burda hər şey yaxşıdı. Neynirsiz hardayam? Yaxşı olduğumu bilin bəsdir. Telefonu söndürürüm

daha. Səsin qırıq-qırıq gəlir. Hələlik. – Telefonu söndürüb cibinə qoydu. Sonra mənə baxaraq dedi. – Əşşi millət bekardı Vallah. Oturublar yerlərində nə gəldi danışırlar.

– Nə deyirlər ki? – Uzandığım yerdən ona baxdım.

– Dostuma zəng eləmişəm, deyir nə gec aldınız torpaqları. Elə bil meyvə alırıq burda.

– Əşşi onlar nə bilsinlər. Qınama dostunu. Burdakı vəziyyətdən xəbərləri yoxdur heç birinin.

– Həə. Ancaq hamısı sevinir. – Gülərək davam elədi. – Bütün bazar məndən danışırmış.

– Danışacaqlar da. – Kərimzadə qəhqəhə ilə dedi. – Sən neynirsən orda Quliyev?

– Heç nə. Xudafərin körpüsünə sancılmış bayraqların şəkillərinə baxıram.

– Mayor Hacıyev də mütləq orda olar. Neçə gündür burdayıq. Heç xəbər gəlmir ondan.

– Yəqin ki, Muradov. İndilərdə Zəngilanın geri qaytarılması üçün əməliyyat keçirirlər. Yaxınlarda yaxşı xəbərləri gələr İnşaAllah.

– İnşaAllah. – Hamımız bir ağızdan dedik.

– Ancaq oğraşlar yenə Gəncəni vurublar. Şəhidimiz çoxdur. Uşaqlar da var. – Qəribov üzünü turşudaraq dedi.

– Gərək adamın düşməni də kişi olar. Allah hamısının bəlasını versin. – Hüseynov əsəbləşərək qarasına deyinirdi.

– İndi biz etsəydik tumanlarını başına çəkib bütün dünyanı qarışdırmışdılar. Bir çox ölkə də bu şərəfsizlərin tərəfini saxlayır.

– Elədir, Kərimzadə. Ancaq bizim tərəfimizi saxlayanlar da az deyil. Onlar həqiqəti görürlər heç olmasa.

– Həqiqətin yanında azlıq olur, Muradov. Çoxluq isə həmişə səhvə doğru qaçır. Guya erməniləri fikirləşən var?! Hamısının dərdi ara qarışdırmaqdı. Ermənilər isə kuklaları. Onlar necə istəyirlər, ermənilər də elə hərəkət edirlər. Bədbəxtlər! – Ağayev əllərini açaraq əsəblə danışırdı.

– Bilirəm... bilirəm. Ne etmək olar! Bizə düşən ədaləti bərpa etməkdir. Əsas odur, Allah bizimlədir. Bu bizə bəs edir. – Yerimdə uzanaraq tavana baxdım.

Yenidən səssizlik çökdü. Hamı öz yatağına uzanaraq özü üçün məşğuliyyət tapmağa çalışırdı. Elə bu an Kərimzadə yenidən danışdı:

– Kapitan Sarıyev hardadır? Bugün onu heç görməmişəm.

– Füzulidə olmalıdır. Sabah qayıdacaq deyirlər. – Kərimzadənin sualına cavab verdim.

– Bizsə neçə gündür ki, burdayıq. Heç yana da tərpənmirik. Görəsən, bizi hara göndərəcəklər?

– Nə bilim, Quliyev. Kəndləri azad etdikdən sonra qaldıq burda. Dedilər Qubadlı istiqamətində irəliləyəksiniz. Ancaq hələ bir xəbər yoxdur.

– Ağbulaq gözəl kənddir, Muradov. Lap yaşanası yerdir.

– Elədir, Ağayev. Ancaq biz bura istirahətə gəlməmişik. Bizim borcumuz Vətəni qorumaqdır.

– Düzdür, Şəhriyar.

– Elsəvər, sən neynirsən orda? İndi nə hoqqa verirsən?

– Evimin adını yazıram divara. İstəyirsiniz sizdə yazın. – Əlindəki boya fırçasını göstərib dedi. – Necədi, Şəhriyar?

– Bunları hardan tapdın? – Kərimzadə yataqdan qalxaraq onun yanına getdi.

– Zirzəmidən. – Hüseynov Gülərək cavab verdi.

– Sən uşaq evində böyümüsən?

– Hə, Şəhriyar. Mənim evimdə oradır. – Divardakı yazını göstərdi. – Hamının "haralısan" sualına bir cavabı olur, mənim də cavabım budur. – Hüseynovun gözləri parıldayırdı.

– Çox qəribə adamsan, Hüseynov. Allah səni saxlasın. – Gülümsəyərək əlimi qoluna vurdum.

– Hə... bəlkə siz də yazasınız? – Hüseynov əlindəki fırçanı bizə uzatdı.

– Bütün talışlara salamlar. – Belə yazım bəlkə? – Kərimzadə divarı göstərib dedi.

– Onda mən də ləzgilərə salamlar yazacam. – Quliyev divarın sağ tərəfinə gedərək dedi.

– Avarları da yaddan çıxarmayın. – Otağa girən Dadaşov gülərək bizə baxdı.

– Mən də onda tatlara salam yazım. – Fırçanı Hüseynovun əlindən aldım. – Ya da gəl hamısının adını yazım alt-alta, sonra da "Bütöv Azərbaycana salamlar" yazım. Necə fikirdir?

– Əntiqə. Yaz onda, Şəhriyar. – Hüseynov əl çalmağa başladı.

– Türkü, talışı, avarı, tatı, ləzgisi, müsəlmanı, xristianı, yəhudisi, hamısı bizimkidir. Təki birlik olsun.

– Düzdür, Ağayev. – Kərimzadə gülərək dedi.

– Vay ermənininin halına. – Hüseynov yenidən əl çaldı.

Divara istədiyimiz yazıları yazıb qurtardıqdan sonra yenidən yataqlarımıza uzandıq. Bizim burada başqa edəcəyimiz heç nə yox idi. Səbrlə xəbər gözləyir, veriləcək yeni tapşırıqları gözləyirdik.

***

Səhər hamı gözlərini günəşə sevinclə açmışdı. Dünən Zəngilanın alınması xəbəri gəlmişdi. Kəndi sevinc qışqırıqları bürümüşdü. Hər kəs sevinirdi. Kimisi yoldaşlarını qucaqlayaraq sevincini bölüşürdü, kimisi telefonu almış evdəkilərə zəng edirdi, kimisi də ata-baba torpaqlarının geri alınmasını sevinc göz yaşları ilə qarşılayırdı. Bir sözlə, hamının kefi yerində idi.

Günortadan xeyli keçmiş kapitan Sarıyev Füzulidən geri qayıtdı. Hamımız qabağına qaçaraq Zəngilanın alınmasına görə onu təbrik etmək istədik. Ancaq o, heç o halda deyildi. Üzündəki kədəri açıq-aydın görmək olurdu.

– Nə olub, komandir? – Hüseynov onu belə görüb dərhal soruşdu.

– Nəsə pis xəbər var? – Üzünə baxıb dedim.

Ancaq o heç nə danışmırdı. Əli ilə özünə yol açıb evin qabağına qoyulmuş masanın başına keçdi.

– Cənab kapitan, niyə danışmırsınız? – Qəribov da oturdu.

Hamımız masanın ətrafına toplaşıb ona nə olduğunu maraqlanmaq istədik.

– Deyəsən, nəsə eşitmisiniz. Nə olub? – Yenidən sual verdim.

Başını qaldıraraq hamımızı süzdü. Sanki nə deyəcəyini o da bilmirdi.

– Səhər xəbər gəldi. Mayor Hacıyev şəhid olub. Minaya düşüb. – Sözünü bitirib yenidən başını aşağı saldı.

Kapitan Sarıyevin sözləri hamımıza şillə kimi dəymişdi. Heç kim bir söz belə demirdi. Sakitcə başımızı aşağı salmışdıq. Dağ kimi adamı itirmişdik. Elə bir insanı ki, dövlət üçün çox əhəmiyyətli idi. Həm dövlət üçün, həm bizim üçün.

– Ondan başqa da şəhidlər olub. Zəngilanı geri almazdan bir saat əvvəl olub hadisə. Öz ata-baba torpağına ayaq basa bilmədi. Allah hamısına rəhmət eləsin.

– Amin. – Hamımız bir ağızdan dedik.

Ayağa qalxaraq evə doğru getdim. Evə girərək yatağa uzanıb düşünmədən gözlərimi bağladım. Ardımca yoldaşlarım da gəldilər. Onlar da mənim kimi yerlərinə uzandılar. Bir neçə dəqiqəlik sükutdan sonra Hüseynov sözə başladı:

– Həyat çox qəribədir. Bugün gördüyün insanı sabah görməyə bilərsən.

– Elədir. Mayor Hacıyev güclü insan idi. Ancaq heyf, çox heyf. Öz evini son dəfə görmədən köçdü dünyadan. – Quliyev dərindən nəfəs aldı.

– Şərəfsizlərin ucbatından neçə igidimizi itirdik. Hələ bəlkə yenə də itirəcəyik. Allah bunları bizə calayanların bəlasın versin! – Kərimzadə əsəbdən divarı yumruqlayırdı.

– Ona görə də sona kimi gedəcəyik. Bizim kim olduğumuzu bütün dünyaya göstərməliyik ki, bir də cürət edib torpaq iddiasına düşməsinlər. – Gözlərimi açaraq onlara baxdım.

Yenidən gözlərimi yumdum. Onlarda artıq sakitləşmişdilər. Heç nə danışmırdılar. Bircə Hüseynov telefonda mahnı açmışdı. Ona qulaq asır, arabir "Can, ay Səxavət" deyə dodağının altında mızıldanırdı. Hamımız yatmaq, bəlkə də unutmaq istəyirdik. Başqa əlimizdən heç nə gəlmirdi. Ta ki, əmr verilənə kimi.

***

– Hamı qalxsın! Kapitan Sarıyev çağırır.

Leytenat Əliyevin səsi otağı bürümüşdü. Gözlərimi açaraq qaranlığa nəzər yetirdim.

– Gedirik, komandir? – Hüseynov yerindən dikəlib soruşdu.

– Cənab kapitan özü deyəcək. Hamı tez çölə gəlsin. – Leytenant sözünü bitirib çölə çıxdı.

– Deyəsən, bizə yol göründü. – Quliyev silahını əlinə alaraq dedi.

– Axırki. – Yerimdən qalxdım. – Görək istiqamət haradır, – deyə çöl qapıya tərəf getdim.

Həyətə çıxanda kənddə hərəkətlənməni hiss etmişdim. Hamı kəndin mərkəzinə doğru gedirdi. Kapitan Sarıyev yeni tapşırığımızı deyəcəkdi.

– Hamı çoxdan oyanıb ki. – Qapıdan çıxan Kərimzadə küçəyə baxaraq dedi.

– Onda biz də gedək. – Hüseynovun arxadan səsi gəldi.

– Gəlin. – Həyət qapısına doğru gedərək dedim.

Silahlarımızı çiynimizə keçirib kəndin mərkəzinə doğru tələsdik. Hamı orada idi. Kapitan Sarıyev Kamaz markalı avtomobilin qabağında dayanıb hamının gəlməsini gözləyirdi.

– Cənab kapitan, dediyiniz kimi hamı hazır vəziyyətdə əmrinizi gözləyir. – Leytenant Əliyev məruzə etdi.

Kapitan Sarıyev mərkəzə yığışanlara baxıb əli ilə aşağı oturmağımızı istədi. Hamı bir nəfər kimi yerdə bardaş qurub onu dinləməyə başladıq.

– Birazdan yola düşəcəyik. Qərbə doğru. – Bir neçə saniyə susaraq hamıya nəzər yetirdi. – Neçə gündür ki, buradasınız. İnanıram ki, siz də vuruşmaq istəyirsiniz. Sizi çox çətin vəzifə gözləyir. Və inanıram ki, bu vəzifənin öhdəsindən layiqincə gələcəksiniz.

– Cənab kapitan, Qubadlıya gedirik? – Balaşov həyəcanla soruşdu.

– Hə... Qubadlıya gedirik. – Kapitan Sarıyevin gözləri parlayırdı. – Tam hazır olduqdan sonra yola düşəcəyik. – Üzünü Əliyevə çevirdi. – Hər şey hazır olduqdan sonra mənə xəbər ver.

– Oldu, cənab kapitan. – Əliyev əllərini yanında birləşdirib sözünü dedikdən sonra bizə tərəf baxdı. – Hamı silahlanıb avtomobillərə minsin.

Onun sözündən sonra ayağa qalxaraq silah, mərmiləri avtomobillərə daşıdıq. Hər şey hazır olduqdan sonra isə özümüz də avtomobillərdə yerimizi aldıq.

– Görəsən, ilk hara gedəcəyik?

– Nə bilim, Kərimzadə. Yəqin ki, birbaşa Qubadlıya girməyəcəyik. Əvvəlcə kəndlər gələcək. – Dodağımı büzərək dedi.

– Eşitdiyimə görə ermənilər çox böyük istehkamlar qurublar. Onları məhv etməli olacağıq. Bu heç də asan olmayacaq.

– Bizim üçün çətin heç nə yoxdur, Qəribov. Əsas odur ki, istəyək, İrəvana kimi gedərik!

– İnşaAllah, Hüseynov. Bir gün o da olacaq əlbət. – yumruğumu sıxaraq dedim.

– Ancaq hələ ki, azad etməli olduğumuz kəndlər, qəsəbələr, şəhərlər var. Gecə çox uzun olacaq.

– Düz deyirsən, Dadaşov. Lap Nizaminin şeiri yadıma düşdü. – Quliyev gülümsəyərək şeirin bir bəndini dedi.

*Bu gecə yatmaq nədir, xoşdur kef etmək sübhədək,*
*Başqa gün mümkün yatıb məqsuda yetmək, sübhədək.*

– Quliyev, məncə o şeirlə bizim indiki vəziyyətimiz çox ayrı-ayrıdır axı. – Hüseynov gülməyə başladı.

Onun gülməyi ilə biz də gülməyə başladıq. Kefimiz həqiqətən kök idi. Üzümüz gülürdü.

***

Azərbaycan ordusunun tərkibində durmadan irəliləyirdik. Hər kənd, hər qəsəbə bizi qələbəyə daha da yaxınlaşdırırdı. Oktyabr ayının 23-də Cəbrayılın Dağ Tumas kəndinə girməyi bacarmışdıq. Ermənilər artıq məğlub olduqlarını anlayırdılar. Ordumuz bütün istiqamətlərdən Qubadlının geri alınması üçün

vuruşurdu. Ermənilərin illərlə hazırladıqları istehkamları ağır artilleriya silahları ilə yerlə bir edirdik. Ən çətin döyüşlər isə dağlarda gedirdi.

– Cənab Polkovnik, sizin əmrinizlə irəliləyirik. Tezliklə kəndə girəcəyik.

Kapitan Sarıyevin səsinə xəttin digər tərəfindən cavab gəldi.

– Mütləq bugün o kəndə girilməlidir. Vaxt itirmək olmaz.

– Oldu, cənab polkovnik.

Biz isə danışıqları diqqətlə qulaq asır, verilən tapşırığın nədən ibarət olduğunu bilmək istəyirdik.

– Danışdığı bilirsiz kimdir? – Kərimzadə Kapitan Sarıyevi göstərdi.

– Kimdir ki? – Arxaya çevrilərək sual verdim.

– Azərbaycanın Milli Qəhrəmanı. Kapitan Sarıyev onunla danışır. Gör necə igidlərlə çiyin-çiyinə vuruşuruq.

– Bəs necə, Kərimzadə? – Hüseynov gülümsədi. – Bu yolda vuruşan hər kəs qəhrəmandır.

– Bugün kəndə girməliyik, deyəsən. – Əlimlə onların sakit olmalarını istədim.

– Girərik. Problem deyil. Əsas bu dağları keçək. Qalanı rahat olacaq. – Quliyev dilləndi.

– Balaşov, sən nə fikirləşirsən? – Dadaşov üzünü ona çevirdi.

– Mənim üçün fərqi yoxdur. Əsas odur, Qubadlını geri alaq. – Balaşovun gözləri parlayırdı.

– İnşaAllah, – deyə yenidən kapitan Sarıyevə nəzər yetirdim.

Kapitan Sarıyev danışığını bitirdikdən sonra dərhal bizə tərəf döndü.

– Hücuma keçirik. Padardan keçərək irəliləyəcəyik. Havadan bizə dəstək olacaqlar. Hamınız çox diqqətli olun.

– Oldu, komandir. – Hamımız bir ağızdan dedik.

– Getdik onda!

Hamımız bir nəfər kimi dağ yolları ilə kəndin yolunu tutmuşduq. Hər kəs çox diqqətli idi. Düşmən qəfil zərbə endirə bilərdi. Buna görə də ehtiyatlı hərəkət edirdik. Kapitan Sarıyev öndə gedir, bizə yolu göstərirdi. Cığırı keçib geniş yola yenicə çıxmışdıq ki, kapitan Sarıyevin qışqırıq səsi gəldi.

– Hamı yerə yatsın!

Bir anda atəş səsləri bütün dağa yayılmışdı. Ermənilər bizə pusqu qurmuşdular. Mərmilər vıyıltılı səslə yanımızdan keçir, torpağa, daşa dəyirdi. Başımı qaldıraraq ətrafa boylandım. Hüseynov kürəyi üstə yerə uzanıb qalmışdı. Sürünərək yanına tələsdim.

– Hüseynov... Hüseynov?! Eşidirsən? – Əlimlə bədənini yoxlamağa çalışdım. Ancaq qan yox idi. – Hüseynov? Eşidirsən məni?! – Onu silkələməyə başladım.

– Eşidirəm... eşidirəm.

– Yaxşısan?!

– Bilmirəm. Sinəmdə nəsə ağrı hiss edirəm.

Əlimlə qoruyucu jiletini aralayıb sinəsini yoxladım. Sonra isə anidən gülməyə başladım.

– Nə olub? – Hüseynov ağrı içində mənə baxıb dedi.

– Buna bax! – Telefonu çıxarıb gözlərinin qabağına tutdum. – Mərmi telefonu deşib dayanıb.

Hüseynov telefonu görüb gülməyə başladı. Dəli kimi gülürdü.

– Ay Allah, sən nələrə qadirsən. – Bir yandan gülür, bir yandan da gözlərindən yaş gəlirdi.

– Hüseynov, ağacların arxasına keçməliyik.

– Yaxşı. – İnilti ilə ağzı üstə fırlandı.

İkimiz də sürünərək ağacların arxasına keçdik. Qızğın döyüş gedirdi. Yaralılar var idi.

– Pusquya düşmüşük. İki tərəfdən də atəş açırlar. – Kapitan Sarıyev qərbə doğru atəş açaraq qışqırmağa başladı.

– Cənab kapitan, necə çıxacağıq burdan?

– Əliyev, arxalarına keçməliyik. Başqa yolu yoxdur. İki tərəfdə də adamları azdır. – Bunu atəş səslərindən hiss etmək mümkün idi.

– Qərb və şərq tərəfdən atəş açırlar. Qərbə getmək üçün şərqi aradan qaldırmalıyıq. – Kərimzadə atəş gələn tərəfə silahını tutdu. Tətiyi basaraq atəş açdı.

– Aşağıdan dolanmalıyıq. Başqa çıxış yoxdur. – Ağacların arxasından kapitan Sarıyevə tərəf addımladım. – Komandir, iki qrupa bölünək. Cənuba enərək şərqdən onların arxalarına keçmək istəyirik.

– Yaxşı, Muradov. – Geri dönmək istəyirdim ki, kapitan Sarıyev qolundan yapışdı. – Hamınız sağ gələcəksiniz bura. Eşitdin?

– Oldu, cənab kapitan. – Gülümsəyərək ondan uzaqlaşdım.

Yenidən öz yerimə qayıtdım.

– Uşaqlar, kapitan Sarıyev də biz deyəni deyir. Başqa çarəsi yoxdur.

– Şəhriyar, neçə nəfər gedəcəyik? – Kərimzadə sual verdi.

– Altı nəfər bəs edər. Çünki şərq istiqamətində çox adam yoxdur. Mən, Balaşov, Kərimzadə, Quliyev, Dadaşov və sən, Hüseynov. Qalanı isə bizə yol açacaq.

– Yaxşı. Onda vaxt itirməyək. Yoxsa, bura son mənzilimiz olacaq. – Hüseynov şərqə baxdı.

– Komandir, bizə yol açın. – Çavuş Daşdəmirova üzümü çevirdim.

– Gedin! – Çavuş silahını şərqə tutaraq atəş açmağa başladı.

Biz isə o anda gözdən itərək aşağı doğru qaçmağa başladıq. Sürətlə qaçırdıq. Mərmilər başımızın üstündə keçərək ağaclara dəyir, uğultulu səslə dağlarda əks-səda yayırdı. Dar cığır yollarla aşağı doğru qaçıb anidən şərqə tərəf qaçmağa başladım. Qalanlar da mənim arxamca gəlirdi. Bir neçə dəqiqə sürətlə qaçdıqdan sonra yuxarıya doğru istiqamətləndim. Artıq arxalarına keçə bilərdik. Atəş səslərinə yaxınlaşdığım zaman iri çinar ağacının arxasına keçib dayandım.

– Hamımızın bir getməyi məsləhət deyil. Burada ayrılacağıq. Ancaq silahla deyil, çalışın bıçaqlardan istifadə edin.

– Mən getdim o zaman, – deyə Hüseynov silahı çiyninə aşırtdı. Bıçağı çıxaraq sağ əlində saxladı.

– Biz də gedək. – Kərimzadə o biri yoldaşlara baxdı.

Hər kəs bir tərəfə dağıldı. Ehtiyatlı olmalıydım. Əlimdəki bıçağı qarşımda tutaraq yarı əyili vəziyyətdə addımlamağa başladım. Silah səsləri gələn tərəfə doğru gedirdim. Bir neçə addımdan sonra əlli metrliyimdə qaraltı gördüm. Düşmən silahını qərbə tərəf tutmuş, durmadan atəş açırdı. Arxadan dolanaraq yavaşca ona yaxınlaşdım. Bir neçə metr daha və cəld üstünə tullanaraq silahını kənara atdım. Bunu görüb o da üstümə atıldı. Yamacda bir-birimizi tutmuş, yaşamaq uğrunda ikimiz də gücümüzü sonuna kimi istifadə edirdik. İlk zərbəni mən endirdim. Yumruqla üzündən vuraraq yerə yıxdım. İnilti ilə yerə yıxılan kimi üstünə çıxıb ardıcıl yumruq zərbələri endirməyə başladım. Bütün gücümlə vururdum. Bütün hirsimi üstünə tökürdüm. Bir neçə zərbə endirdikdən sonra sağ yumruğu ilə böyrümdən vurub məni kənara atdı. Və bu dəfə o mənim üstümə çıxıb yumruqlamağa başladı. Yumruqlarının təsiri çox zəif idi. Yorulduğundan gücünü toplaya bilmirdi. Qolunu tutaraq üstümdən itələdim. Bıçağı alaraq cəld üstünə atılıb sinəsindən bıçaqlamağa başladım. Neçə zərbə endirdiyimi heç özüm də bilmirəm. Ancaq taqətdən düşmüşdüm. Ətrafa baxaraq kiminsə olub-olmadığını yoxladım. Kimsə gözə dəymirdi. Özümü kənara atıb dərindən nəfəs almağa başladım. Bir neçə dəqiqə eləcə oturduqdan sonra ayağa qalxıb yenidən yuxarı qalxmağa başladım. Atəş səsləri get-gedə azalırdı. Deyəsən, uşaqlar işlərini yaxşı görürdülər.

Silah səsləri gələn tərəfə gedirdim. Yenidən düşmənin hərbi formasını görmüşdüm ki, ehtiyyatla ona yaxınlaşdım. İyrənc üzünü bizim əsgərlərə tərəf çevirib atəş açırdı. Bu səfər daha diqqətli idim. Arxasına keçərək bıçağı boğazına keçirməyimlə başını bədənindən ayırmağım bir oldu.

– Cəhənnəmə yolun açıq olsun. – Bıçağın üzərindəkı qanı üstünə sildim.

Artıq səslər tamamilə kəsilmişdi. Şərqdən heç bir təhlükə gözlənilmirdi. Yenidən yuxarı çıxdım. Hüseynov cığırın bir tərəfində oturub nəfəsini dərirdi.

– Nə olub? Çox yorulmusan, deyəsən.

– Eşşək boyda biri ilə boğuşdum. Oğraş dəvə boyda idi. – Hüseynov zorla danışırdı.

– Sağsansa, deməli ölüb. – Gülməyə başladım.

– Hə. Göndərdim o biri tərəfə.

– Bəs o birilər hanı?

Sözümü yeni bitirmişdim ki, Kərimzadə ilə Dadaşov də gəlib çıxdı.

– Yaxşısız?

– Yaxşıyam. Öldürdük hamısını. Heç kim qalmadı. – Dadaşov əllərini dizlərinə qoyaraq dedi.

– Balaşovla, Quliyev harda qaldı, – deyə öz-özümə söylənirdim ki, onlarda gəlib çıxdılar.

– Salam, cavanlar. – Balaşov gülərək dedi.

– Balaşov, deyəsən sən heç yorulmamısan? – Kərimzadə yerə oturub dincini almağa çalışdı.

– Yekə bir çomaq tapmışdım. Necə vurdumsa, boynuyoğuna, elə orda da qaldı. – Qəhqəhə çəkərək gülməyə başladı.

– Yaxşı elədin. Durun gedək. Bəsdir dincəldik. – Hüseynov ayağa qalxdı.

– Gedək. – Silahı qərbə tərəf tutaraq dedim.

Hamımız sağ idik. kapitan Sarıyevin yanına qayıtdıqda altımızı da sağlam qarışısında görüb sevinərək “ Halal olsun sizə” dedi.

Pusqu deyilən bir şey qalmamışdı. Biz qalan düşmənləri də məhv etdikdən sonra kəndə girə bilmişdik. Qubadlıya doğru irəliləyirdik. Təkcə biz yox başqa dəstələrdə bizimlə birləşirdi. Qubadlıya az qalmışdı. Bir neçə kilometrdən sonra orada olacaqdıq.

Azərbaycan ordusu gücünü yenə düşmənə və onun tərəfdarlarına göstərmişdi. 25 Oktyabr, sərin payız günündə biz Qubadlıya daxil olmuşduq. Balaşov əllərini havaya açaraq ucadan qışqırırdı:

– Gözümüz aydın, Qubadlı. Mən evə qayıtdım.

Onun sevincini izah etmək mümkün deyildi. Bir yandan göz yaşı tökürdü, bir yandan da sevinirdi. Uşaq kimi hönkür-hönkür ağlayırdı, dəli kimi gülürdü. İllərin həsrətinə son qoyulmuşdu. Anasının qucağında doğma evini tərk edənlər, əldə silah qayıtmışdı evlərinə. Bunları izah edə biləcək cümlələr isə yox idi.

Qubadlı rayonunun azad edilməsindən sonra sıra digər işğal altında qalan torpaqlarda idi. Biz durmayacaq, haqqımız olanı sona kimi alacaqdıq.

***

– Görəsən, burada neçə gün qalacağıq?

– Nə bilim, Xalid. – Başımı qaldırmadan Quliyevə dedim.

– Kapitan Sarıyevin də yenə rəngi qaralıb. Bütün günü bikef gəzib. – Hüseynov siqareti ciyərinə çəkdi.

– Necə qaralmasın?! Polkovnik şəhid oldu. Onun kimi bir insan... – Dərindən nəfəs aldım.

– Çətindir. Torpaqları geri alırıq, ancaq bir yandan da şəhid veririk qara torpağa. Bir yanımız gülür, bir yanımız da ağlamaqdan betər olub. Halımız yamandır. Balaşova baxın, – deyə Quliyev əli ilə ağacın altını göstərdi. – Qubadlıya girdiyimizdə necə sevinirdi. Ancaq indi sakitcə bir küncdə oturub. Səhərdən bir adamla da bir kəlmə kəsməyib. Bilirsiz niyə? Çünki evlərini yerində tapa bilmədi. Dağıtmışdılar. Elə bilirdi şəkillərdə gördüyü evlərini mütləq tapacaq, içinə girəcək. Ancaq nə ev vardı, nə həyət. Bu zülmə necə ürək dözsün axı?!

– Ağayev Vüqarın nəşini də bugün apardılar. – Kərimzadə stula oturaraq dedi.

– Allah rəhmət etsin. Yeri cənnət olsun.

– Amin, Şəhriyar. – Hüseynov əlini dizimə yavaşca vurdu.

– Görəsən, hələ nə qədər şəhid verəcəyik? Bunun bir sonu olacaqmı? Çingizlər, Mübarizlər, Poladlar itirdik.

– Qəribov, elə onlar bizi buralara gəlməyə vadar etmədimi? Onlar olmasaydı, biz indi burada olmazdıq. Hər şeyi onlara borcluyuq.

– Hüseynov, mən demək istəyirəm ki, nə vaxta kimi?

– Bilmirəm, Qəribov. Nə vaxt ki, düşmən düşmənliyindən əl çəkəcək, o vaxta kimi. – Hüseynov ayağa qalxıb həyət qapısına yaxınlaşdı.

Onun ardınca biz də qalxıb küçəyə çıxdıq. Bir neçə gün idi ki, burada idik. Qubadlının təmiz havasını ciyərlərimizə çəkir, doyunca nəfəs alırdıq. Qaldığımız ev dağıdılmamış tək-tük evlərdən biri idi. Ona görə də burada qalırdıq. Küçəyə çıxaraq şəhərin mərkəzinə doğru addımlamağa başladıq. Hava soyuq idi. Payızın ortalarında idik. Ağacların üzərindəki yarpaqlar saralıb tökülməyə başlamışdı. Göy üzünü buludlar örtmüşdü. Arabir yağan seyrək yağışlar torpağın saf qoxusunu qaldırırdı göylərə. Qubadlı azad idi. Qubadlı təmiz idi artıq.

Torpaq yolla üzü aşağı gedərək sağa döndük. Bir neçə addım atmışdıq ki, binanın pəncərəsindən Dadaşov bizi səslədi:

– Bura gəlin.

– Nə olub, Şahin? – Başımı qaldıraraq ona baxdım.

– Gəlin özünüz görün, – deyə bizi yanına çağırdı.

– Gedək, görək bizə nə göstərir. – Hüseynov qabağa atılıb binaya girdi.

Hamımız binanın dördüncü mərtəbəsinə qalxdıq. Dadaşov evin zalında, əllərində şəkillərlə durmuşdu.

– Niyə çağırırsan bizi, Dadaşov? – Kərimzadə ona baxdı.

– Gəlin şəkillərə baxın. – Əlindəki şəkilləri uzatdı.

Şəkilləri götürərək bir-bir baxmağa başladım. Ancaq qəribə heç nə yox idi.

– Nə olub ki? Adi, köhnə şəkillərdir.

– Adi şəkillər deyil, Muradov. Şəkillərin arxasına bax bir də.

Şəkillərin arxasını çevirdim. Şəkillərin hamısında Azərbaycan dilində, kiril Əlifbası ilə “Qubadlı, 1985-ci il” Yazılmışdı. Hətta bir şəkilin altında “ Qardaşım oğlu Arazın toyu” sözləri vardı.

– Bu şəkillərdəkilər ermənilər deyil. – Heyrətlə Dadaşova baxdım.

– Hə. Mən də elə onu demək istəyirdim.

– Gör neçə ildir ki, bu şəkillər burdadır. Ancaq bu evdə qalanlar onu atmayıblar. – Quliyev şəkilləri əlinə alıb baxmağa başladı.

– Əslində tapa bilməyiblər. – Dadaşov şəkilləri göstərərək dedi.

– Necə yəni? – Kərimzadə Dadaşovun üzünə tərs-tərs baxdı.

– Bu şəkilləri mən binanın damından tapmışam. – Əli ilə evin tavanını göstərdi. – Baxın! Oradan dama çıxmaq olur. Orada nə qədər əşyalar var. Hamısı da azərbaycanlılarındır məncə. Bu şəkillər də damın bir küncündə taxtaların altında idi. Yəqin ki, burda qalan ermənilər heç ora fikir verməyiblər.

– Yəqin ki, Dadaşov. Bu şəkilləri də, əşyaları da saxlamaq lazımdır ki, bu evin sakinləri yenidən bura qayıdanda hamısını tapa bilsinlər. – Şəkilləri Dadaşova uzatdım.

– Ermənilər buradan qaçarkən hər şeyi dağıdıb gediblər. Ona görə də evlərin hamısı alt-üstdür. Hələ yandırdıqları evləri demirəm. – Dadaşov şəkilləri masanın üstünə qoydu.

– Elə bilirlər ki, bununla nəsə edəcəklər. Axmaq millətdir də. – Hüseynov başını yelləyərək gülümsədi.

– Yaxşı biz çıxaq. Burada bizlik bir iş yoxdur.

– Siz gedin, Muradov. Mən hələ buradayam. Bəlkə başqa nəsə tapa bildim.

– Yaxşı, Dadaşov. İşində ol. Yorulmayasan.

– Sağ olun.

Hamımız mənzildən çıxaraq pilləkənlərlə aşağı düşdük. Binanın arxasına keçərək mərkəzə doğru addımlamağa başladıq. Mərkəzdə, mədəniyyət evinin binasının üstündə Azərbaycan bayrağı dalğalanırdı. Ona baxaraq binanın

qarşısından keçdik. Yüz metrdən sonra sola dönərək yenidən qaldığımız evə doğru addımladıq.

– Kapitan Sarıyev ordadır. – Hüseynov kapitanı göstərib dedi.

– Gedək yanına. Bəlkə hara gedəcəyimizdən xəbəri olar. – Kərimzadə ona sarı getməyə başladı.

Hamımız bir nəfər kimi onun yanına gedib qarşısında durduq.

– Komandir, nə vaxta kimi burda qalacağıq?

– Bilmirəm, Hüseynov. Hələ ki, buranı qorumağı tapşırıblar bizə. Növbə ilə posta gedəcəksiniz. Qubadlını da müdafiə etmək lazımdır.

– Digər kənd və qəsəbələr bəs? – Ehtiyatla sual verdim.

– Onları ordunun digər hissələri alacaqlar. Onsuzda bizi görən kimi qaçırlar. Şərəfsizlər! – Kapitan Sarıyev siqareti damağına qoyaraq dodaqaltı mızıldandı.

– Başa düşdüm, cənab kapitan. – Uşaqlara baxaraq yavaşca “gedək” dedim.

Kapitanın yanından uzaqlaşıb qaldığımız evə girdik. Axşam posta gedəcəkdik. Ona görə də istirahət etməli idik.

***

Günlər sürətlə gəlib ötürdü. Vaxtımız Qubadlını qorumaqla keçirdi. Bu arada isə ordumuz irəliləyir, digər kənd və qəsəbələri də düşməndən geri alırdı. Bizsə hər gün yeni təlimat gələcək ümidi ilə gözləyir, döyüşən ordunun tərkibinə qatılacağımız zamanı gözləyirdik. Və sonunda istədiyimiz xəbər gəlmişdi. O gün Noyabr ayının ilk günləri idi. Noyabr ayının yeddisində biz Qubadlı rayonun Balasoltanlı kəndini də düşmən tapdağından xilas etmişdik. Bu bizim üçün elə də çətin olmamışdı. Çünki düşmən artıq məğlubiyyəti dadmışdı. Elə buna görə də bizim ordunu görən kimi qaçırdılar.

### *8 Noyabr*

– Hamı kəndin mərkəzinə gəlsin. – Kərimzadə otağa girərək hamımıza baxdı.

– Nə olub? – Oturduğum stuldan qalxıb ona tərəf getdim.

– Kapitan Sarıyevin bizə sözü var. Mən də bilmirəm nə məsələdir.

– Gedək onda.

Otaqdan çıxaraq pilləkənlə birinci mərtəbəyə endik. Oradan küçəyə çıxaraq kənd mərkəzinə doğru tələsdik.

– Görəsən, niyə çağırır bizi?

– Nə bilim, Elsəvər. Yəqin, harasa gedirik. – Ona baxmadan dedim.

– Gedib görəcəyik də. Səbrli olun biraz. – Qəribov silahını çiyninə alaraq sürətini artırdı.

Kənd mərkəzinə çatdıqda artıq hamı orada idi. Kapitan Sarıyev iri çinar ağacının altında dayanıb bizə baxırdı. Bir qədər də susaraq bizi izlədikdən sonra uca səslə sözə başladı.

– Bu gün çox gözəl xəbər almışam. İstədim siz də bunu biləsiniz. Azərbaycan ordusu bu saatlarda Şuşaya daxil olub. Şuşa işğaldan xilas olmuşdur. Şuşa azaddır!

– Ay MaşaAllah! – Hüseynov özünü itirərək qışqırdı.

– Bəli, Hüseynov. – Kapitan gülərək dedi. – Bugündən Şuşaya düşmən ayağı dəymir. Bugündən Şuşa həmişəlik bizimdir. – Silahının lüləsini göyə tutaraq bütün darağı boşaltdı.

Hamımız sevinir, bir-birimizlə sevincimizi paylaşırdıq. Şuşanın qaytarılması müharibəyə çox böyük təsir edəcəkdi. Alınmaz qala dedikləri bir neçə saatın içində geri qaytarılmışdı. Bunu Azərbaycan ordusu etmişdi.

Həmin gün ancaq Şuşa haqqında danışmış, öz fikirlərimizi bir-birimizlə bölüşmüşdük.

– Əşşi day bundan sonra bizə ölüm yoxdu. Axıra kimi gedəcəyik. – Hüseynov sol böyrü tərəfə uzanaraq dedi.

– İnşaAllah. – Qaranlıq otaqda gözlərimi tavana dikmişdim.

– Heç bir ağır artilleriya, havadan hücum olmayıb Şuşada. Ancaq açıq döyüş. Vallah hər adamın işi deyil o qayalıqları qalxmaq. Şuşanın hər tərəfi sıldırım qayalıqlardır.

– Erməni də ona güvənirdi də. Elə bilirdi ki, o tərəfdən hücum olmaz. Ancaq biz sübut etdik ki, istəsək hər şeyi edərik. – Quliyev Hüseynova baxaraq dedi.

– Ermənilərin belini qırmışıq daha. İndiyə kimi elə bilirdilər ki, biz heç nə edə bilmərik. İndi onların heç olduqlarını göstərdik hamıya. Ermənilərə də, dünyaya da.

– Hə, Şəhriyar. Elədir. – Kərimzadə stula oturaraq çaydan bir qurtum içdi. Sonra yenidən sözə başladı. – Yəqin ki, biz də Şuşaya gedərik.

– Bilmək olmaz. Hələ geri qaytarılacaq çox torpaqlar var. Prezident nə göstəriş versə, onu da yerinə yetirəcəyik. – Qəribov dilləndi.

– Görəsən, Bakıda vəziyyət necədi? Camaat nə hislər keçirir orda?

– Virusdan yaxa qurtarmağa çalışırlar. Ancaq mütləq sevinirlər də. – Hüseynov gülərək sualıma cavab verdi.

– Hə, düzdür. – Sağ tərəfə döndüm. – Nəysə yataq. Sabaha hazır olmaq lazımdır.

– Gecəniz xeyirə qalsın. – Kərimzadə də stuldan qalxıb yerinə uzandı.

– Xeyirə qarşı.

Hamımız gözlərimi yumaraq yuxuya getdik.

***

Səhər erkəndən qalxaraq kəndin mərkəzinə getdim. Yeni xəbər gəlib-gəlmədiyini öyrənmək istəyirdim. Ancaq kapitan Sarıyev heç bir xəbər gəlmədiyini dedi. Yeni tapşırıq yox idi. Buna görə kəndin ətrafında dolaşır, əsgərlərlə söhbətlər edir, hal-əhval tuturdum. Burada başqa edəcək heç nə yox idi.

Günortadan sonra isə hər kəs yeməyini yemiş, bir küncə çəkilərək dincəlirdi. Bu axşama kimi çəkmişdi. Hər kəs tapşırığın gələcəyini səbrsizliklə gözləyirdi. Şuşaya getmək üçün bəhanə axtarırdıq. Oranı bir dəfə də olsa, biz də görmək istəyirdik. Hava qaralana yaxın kapitan Sarıyev hər kəsi ətrafına topladı. Deyəsən, hazır olmamızı istəyəcəkdi. Oturduğu stuldan qalxaraq masanın ətrafında var-gəl etdikdən sonra bizə baxdı. Sanki sözə haradan başlayacağını bilmirdi. Bir neçə dəqiqə də bizi seyr etdikdən sonra uca səslə sözə başladı.

– Bugünə kimi hamımız çiyin-çiyinə bura qədər gəlib çıxmışıq. – Səsindəki titrəyişi hamımız hiss edirdik. – İnanıram ki, daha neçə döyüşlərdə bir yerdə olacağıq. – Əlindəki stəkanı yerə qoydu. – Bir saat bundan öncə mənə yeni tapşırıq verildi. Şimala doğru irəliləyəcəyik. Kəlbəcərə, doğma yurdumuza. Bu döyüş digər döyüşlərdən bəlkə də çox fərqlənəcək. Düşmənin əsas ordusu orada toplanmışdır. Hər tərəf minalanmışdır. Düşmən çox hiyləgərdir. Ancaq biz də məğlubedilməz orduyuq. Son qanımıza kimi vuruşacaq, o torpaqları düşməndən geri alacağıq. – Kapitan Sarıyev səsini daha da yüksəltmişdi. Yumruğunu sıxaraq masaya vurur, düşmənə olan əsəbini bildirirdi. – Hamımız bu döyüşdə özümüzü göstərməliyik. Alnımızda Şəhidlik zirvəsinə ucalmaq varsa, nə gözəl. Biz canımızı bu Vətən üçün fəda edəcəyik. Ancaq vuruşacağıq, savaşacağıq. O torpaqları geri almadan ölməyi yaddan çıxarın. Hamınıza deyirəm! – Kapitan Sarıyev əllərini açaraq hamımıza səsləndi. – Sizin vəzifəniz torpaqları azad etməkdir. İlk vəzifəniz budur. Bunu heç vaxt yadınızdan çıxarmayın. Hamımız bunun üçün yaşamalıyıq. – Dərindən nəfəs alaraq bir neçə saniyə susdu. Sonra yenidən sözə başladı. – Gecə yola çıxacağıq. O vaxta qədər hamınız hazır olun. – Çavuş Daşdəmirova baxdı. – Daşdəmirov, avtomobillər tam hazır olsun.

– Oldu, cənab kapitan. – Daşdəmirov dedi.

– İndi isə dağılışa bilərsiniz. Hazır olun. Əmr verdiyim an yola çıxacağıq.

Hər kəs oradan uzaqlaşmağa başladı.

– Kəlbəcərə hardan gedəcəyik?

– Bilmirəm, Hüseynov. Mən buraları yaxşı tanımıram. Kapitan Sarıyev bizi hara aparsa, ora da gedəcəyik.

– Yəqin ilk öncə Laçına gedərik.

– Heç bir fikrim yoxdur.

– Evə zəng edib danışaq məncə. – Qəribov telefonu cibindən çıxartdı.

– Düz deyirsən. – Hüseynov onun sözünü təsdiqlədi. – Muradov sən də danış evlə.

– Danışacam. – Uşaqlardan uzaqlaşaraq telefonu cibimdən çıxartdım. Anama zəng etdim. Telefonu bacım açdı.

– Salam, qaqaş. – Xəttin digər tərəfindən səs gəldi.

– Salam. Necəsən? – Evdəkilərlə üçüncü dəfə idi ki, danışırdım. Burada əlaqə qurmaq elə də asan deyildi. Xətt tez-tez qırılırdı.

– Mən yaxşıyam. Nə vaxt gəlirsən?

Səsə anam da gəlmişdi. Telefonu alaraq həyəcanla danışmağa başladı.

– Şəhriyar? Necəsən? Yaxşısan?

– Yaxşıyam, ana. Səsinizi eşitmək üçün zəng etdim.

– Nəsə olub, bala? – Anamın səsi titrəyirdi.

– Yox. Heç nə olmayıb. Bekarçılıq idi, dedim zəng edim.

– Yaxşı elədin. Hardasınız indi. Gündə bir xəbər eşidirik. Ehtiyalı ol, bala.

– Narahat olmayın. Hər şey yaxşıdır.

– Burda hamı səni soruşur hər gün. Bütün qohumlar, dostların.

– Sağ olsunlar.

– Nə vaxt qayıdacaqsız?

– Bilmirəm. Nə vaxt torpaqlar işğaldan azad olsa, o zaman.

– Daş düşsün başlarına onların. Nə qədər uşaq itirdik.

– Narahat olmayın. Hər şey yaxşı olacaq. – Söhbəti dəyişmək istədim. – Atam hardadır?

– İşdədir. Hələ gəlməyib.

– Ona da salam deyərsən. Burada xətt tutmur. Güclə zəng edə bildim mən də.

– Yaxşı, bala.

– Mən gedirəm daha. Sonra yenə danışarıq.

– Oldu, bala. Öpürəm səni. Özünə yaxşı bax. Ehtiyatlı ol. Yaxşı?

– Yaxşı. – Gülümsədim.

– Qaqaş, tez gəl. – Qıraqdan bacımın səsini eşitdim.

– Gələcəm, gələcəm. Telefonu söndürürəm.

Telefonu söndürüb cibimə qoydum. Evdəkilərin səsini eşitmək məni rahatlaşdırmışdı. İndi daha sərbəst idim. Özümü daha gümrah hiss edirdim. İndi döyüşmək olardı.

***

Gecə yarısına kimi hər şeyi hazır etmişdik. Bütün silahlar avtomobillərə daşınmışdı. Yola çıxmaq üçün əmr gözləyirdik. Kapitan Sarıyev hər şeyi yoxladıqdan sonra yola çıxmaq vaxtının gəldiyini dedi. Hamımız avtomobillərdə yerimizi aldıq. Avtomobillər işə düşərək kənddən çıxmağa başladı. Ancaq kənddən yenicə çıxmışdıq ki, bütün avtomobillər anidən dayandı. Hamımız bir-birimizə baxır, nə baş verdiyini anlamağa çalışırdıq.

– Nə olub? – Hüseynov çölə doğru boylandı.

– Heç nə görünmür. – Quliyev də başını çölə çıxartdı. – Görəsən, niyə dayandıq?

– Yəqin nəsə yaddan çıxıb. – Arxa tərəfdən səsləndim.

– Nə bilim. Hər şey ola bilər. – Hüseynov dilləndi.

Bir neçə dəqiqə sonra gizir Alıyev hamının aşağı enməsi əmrini verdi. Heç nə anlamamışdıq. “Aşağı enib nə edəcəkdik?” deyə bir-birimizə suallar verirdik. Aşağı endiyimizdə gizir gülürdü. Nəyəsə sevinirdi. Hamımız kapitan Sarıyevin yanına gedib nə baş verdiyini soruşduq. O isə gülərək bu sözləri dedi:

– Qurtardı.

– Necə yəni qurtardı, komandir? – Təəccüblə sual verdim.

– Müharibə qurtardı. Ermənistan məğlubiyyəti qəbul etdi. İndicə xəbər gəldi. Müharibəni biz qazandıq.

– Bəs digər torpaqlar. – Hüseynov sevinərək sual verdi.

– Hamısını qaytaracaqlar. Həm də bir güllə atmağımıza ehtiyac olmadan! – Kapitan Sarıyev sevinir, gülərək bizə baxırdı.

Bu xəbər hamımızı sevindirmişdi. Müharibə bitmiş, qalib gəlmişdik. Kəndin girişində silahlar səmaya tuşlanmışdı. Atəş səsləri səmanı bürümüşdü. Biz qələbə qazanmışdıq. Qalib ordunun qalib əsgərləri idik biz.

İndi isə yeni bir başlanğıc lazım idi. Yeni dövr başlayırdı. Bu dövr bizim dövrümüz idi. Azərbaycanın dövrü idi.

# SON